

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 46 (940) ▪ 5 dekabr 2018 | www.vergiler.az | Qiyməti: 60 qəp.

# Azərbaycan-Rusiya əlaqələri uğurla inkişaf edir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Rusiyanın rəqəmsal inkişaf, rabitə və kütləvi media naziri Konstantin Noskovu qəbul edib.**

Rusiya Federasiyasının rəqəmsal inkişaf, rabitə və kütləvi media naziri Konstantin Noskov Bakıda keçirilən XXIV «Bakutel» Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisində iştirak etmək üçün dəvətə görə minnətdarlığını bildirib. O, bu tədbirə paralel olaraq Bakıda Regional Rabitə Birliyi çərçivəsində region ölkələrinin rabitə nazirlərinin görüşü barədə məlumat verib. Qonaq qeyd edib ki, bu görüş və «Bakutel» sərgisi beynəlxalq əməkdaşlığın genişlənməsi işinə öz töhfəsini verəcək. Konstantin Noskov, eyni zamanda, Rusiyanın və Azərbaycanın müvafiq nazirlikləri arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq, artıq iki ölkənin poçt xidmətlərinin səmərəli qarşılıqlı fəaliyyət göstərdiklərini bildirib və bunun Çindən Azərbaycan vasitəsilə Rusiyaya böyük həcmdə elektron ticarət məhsullarının göndərilməsi üçün imkan yaratdığını deyib. Eyni zamanda, qonaq Azərbaycanla Rusiya mobil rabitə operatorları arasında əməkdaşlıqla bağlı danışıqların aparıldığını deyib.



Prezident İlham Əliyev Rusiya Federasiyasının rəqəmsal inkişaf, rabitə və kütləvi media naziri Konstantin Noskovun Bakıda keçirilən XXIV «Bakutel» sərgisində iştirakından məmnunluğunu ifadə edib, eyni zamanda, Regional Rabitə Birliyi çərçivəsində region ölkələrinin rabitə nazirlərinin toplantısının beynəlxalq əməkdaşlığın genişlənməsi baxımından əhəmiyyətini vurğulayıb. Dövlətimizin başçısı Bakıda ənənəvi olaraq keçirilən «Bakutel» tədbirinə beynəlxalq marağın və iştirakçı ölkələrin sayının artdığını qeyd edərək, bu tədbirin telekommunikasiya və texnologiyalar sahəsində əldə olunmuş nailiyyətlərlə yaxından tanışlıq və təcrübə mübadiləsinin aparılması üçün yaxşı imkan yaratdığını bildirib.

Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bütün sahələrdə, o cümlədən rabitə və kütləvi kommunikasiyalar sahəsində uğurla inkişaf etdiyi bildirilib və Rusiya Federasiyasının rəqəmsal inkişaf, rabitə və kütləvi media nazirinin səfərinin əlaqələrimizin möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olunub.

Görüşdə iki ölkənin müvafiq qurumları arasında kiber təhlükəsizlik sahəsində əməkdaşlıq, təcrübə mübadiləsi, gələcəkdə qonşu ölkələrlə birgə layihələrin həyata keçirilməsi perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Dövlət başçısı ABŞ nümayəndə heyəti ilə görüş keçirib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Amerika Birləşmiş Ştatlarının müdafiə nazirinin müavininin müşaviri xanım Laura Kuperin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycanla ABŞ arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirib. Prezident İlham Əliyev qarşılıqlı səfərlərin, o cümlədən ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun və digər rəsmilərin Azərbaycana səfərlərinin münasibətlərimizin inkişafındakı rolunu qeyd edib. Müdafiə sahəsində əməkdaşlığın məmnunluq doğurduğunu deyən dövlətimizin başçısı enerji təhlükəsizliyi məsələlərinin də ikitərəfli münasibətlərimizin inkişafında böyük önəm daşıdığını bildirib, bu baxımdan ABŞ hökumətinin və şəxsən ABŞ Prezidentinin Cənub Qaz Dəhlizi layihəsinin reallaşmasına verdiyi dəstəyi yüksək qiymətləndirib. Prezident İlham Əliyev Respublika Günü və enerji sahəsində əməkdaşlıq mövzusunda ABŞ Prezidentinin ünvanladığı məktubların da əhəmiyyətini qeyd edib.

Dövlətimizin başçısı NATO çərçivəsində də əlaqələrin inkişafından məmnunluğunu bildirərək, NATO mənzil-qərargahına son uğurlu səfərini bu təşkilatla əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirib. Prezident İlham Əliyev qeyd edib ki, Əfqanıstandakı sülhməramlı əməliyyatlarda ölkəmizin iştirakı və orada Qətiyyətli Dəstək Missiyasında hərbçilərimizin sayının artırılması Azərbaycanın bu ölkədə ümumi sülhyaratma səylərinə verdiyi töhfəsini nümayiş etdirir. Azərbaycanın etibarlı və sabit tərəfdaş olduğunu qeyd edən Prezident İlham Əliyev ölkəmizin, həmçinin ikitərəfli əsasda da Əfqanıstanda həyata keçirilən quruculuq və yenidənqurma işlərinə öz töhfəsini, xüsusilə «ASAN xidmət» təcrübəsinin Əfqanıstanda da tətbiqinə dəstək verdiyini bildirib.

Azərbaycan Prezidenti İlham Əliyev xanım Laura Kuperin səfərinin və ölkələrimiz arasında müdafiə sahəsində məsləhətləşmələrin əməkdaşlığımızın inkişafına əlavə təkan verəcəyinə ümidvar olduğunu vurğulayıb.

Ölkəmizə səfərinin Azərbaycanla ABŞ arasında müdafiə sahəsində əməkdaşlıq və strateji tərəfdaşlıq əlaqələrinin genişlənməsinin davam etdirilməsi məqsədini daşıdığını deyən ABŞ müdafiə nazirinin müavininin müşaviri xanım Laura Kuper qeyd edib ki, Amerika Birləşmiş Ştatlarının rəhbərliyi Azərbaycanla əlaqələrə mühüm əhəmiyyət verir. Xanım Laura Kuper Azərbaycanla ABŞ arasında terrorizm, kütləvi qırğın silahları və narkotik maddələrin yayılmasının qarşısının alınması və ümumilikdə, təhlükəsizlik sahəsində əməkdaşlığı, Azərbaycanın Əfqanıstanda həyata keçirilən sülhyaratma missiyasına dəstəyini və tranzit daşımaları üçün yaratdığı imkanları yüksək qiymətləndirib.

# Azərbaycan-Türkiyə münasibətləri dərin tarixi köklərə malikdir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Türkiyə Respublikasının nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Türkiyənin nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhanın XXIV «Bakutel» Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisində böyük heyətlə iştirakından məmnunluğunu, Azərbaycanla Türkiyə arasında ikitərəfli münasibətlərin bütün sahələrdə, o cümlədən nəqliyyat və infrastruktur sahələrində uğurla inkişaf etdiyini bildirib. Nəqliyyat sahəsində əməkdaşlığımıza toxunan dövlətimizin başçısı ölkələrimizin birgə həyata keçirdiyi layihələrdən danışaraq ötən il istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin təkcə regionda deyil, daha geniş məkanda böyük önəm daşıdığını vurğulayıb. Dövlətimizin başçısı ölkələrimizin rabitə sahəsində də birgə iş birliyi apardıqlarını, Türkiyə şirkətlərinin bu sahədə uzun illər fəaliyyət göstərdiklərini deyib və rabitə sahəsində əməkdaşlığımızın daha da genişləndirilməsi üçün böyük perspektivlərin olduğunu bildirib.

Nazir Mehmet Cahit Turhan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb. Azərbaycanla Türkiyə arasında əlaqələrin dərin tarixi köklərə malik olduğunu vurğulayan qonaq Azərbaycanda bütün sahələrdə, o cümlədən infrastruktur və şəhərsalmada böyük inkişafın şahidi olduğunu deyib. Mehmet Cahit Turhan bildirib ki, ulu öndər Heydər Əliyevin ifadəsi ilə desək Azərbaycanla Türkiyə «Bir millət, iki dövlət»dir və Azərbaycanın əldə etdiyi uğurlar Türkiyədə böyük sevinclə qarşılanır. Türkiyəli nazir Azərbaycanla Türkiyənin bundan sonra da birgə uğurlu layihələr həyata keçirəcəklərini məmnunluqla qeyd edib.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş edib.

# İranla regional əməkdaşlıq yüksək səviyyədədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhrominin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Məhəmməd Cavad Azəri Cəhrominin XXIV «Bakutel» Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisində iştirakından və İranın bu tədbirdə geniş sayda şirkətlərlə təmsil olunmasından məmnunluğunu bildirib. Sərginin ənənəvi olaraq keçirildiyini deyən Prezident İlham Əliyev burada İran şirkətlərinin daim iştirak etdiyini vurğulayıb. Azərbaycanla İranın müxtəlif sahələrdə, o cümlədən rabitə və informasiya texnologiyaları sahəsində yaxşı əməkdaşlıq həyata keçirdiyini qeyd edən dövlətimizin başçısı müntəzəm qarşılıqlı səfərlərin, eləcə də nazirlər səviyyəsində təmasların yaxşı səviyyədə olduğunu qeyd edib. Dövlətimizin başçısı İKT sahəsində həm ikitərəfli səviyyədə, həm də regional çərçivədə əməkdaşlıq üçün yaxşı imkanlar açıldığını deyib.

Qəbula görə minnətdarlığını bildirən İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhromi ölkələrimiz arasında İKT sahəsində yaxşı əməkdaşlıq həyata keçirildiyini bildirib. O, əməkdaşlığın təkcə ikitərəfli səviyyədə deyil, eləcə də İran, Azərbaycan, Türkiyə, Rusiya səviyyəsində genişləndirilməsi üçün səmərəli müzakirələrin aparıldığını deyib. Məhəmməd Cavad Azəri Cəhromi keçən il Azərbaycan Prezidenti ilə görüşdən ötən dövr ərzində əməkdaşlığın genişləndirilməsi və layihələrin icrası ilə bağlı çoxlu işlərin görüldüyünü məmnunluqla qeyd edib.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Prezident İlham Əliyev CISCO şirkətinin nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də CISCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrixin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı CISCO şirkətinin uzun illər Azərbaycan hökuməti ilə uğurlu əməkdaşlıq həyata keçirməsindən məmnunluğunu bildirib. Prezident İlham Əliyev CISCO şirkətinin Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən nəqliyyat sahəsində həyata keçirdiyi layihələrə toxunaraq bu sahənin ölkəmizdə prioritet istiqamətlərdən biri olduğunu vurğulayıb. Dövlətimizin başçısı regional əməkdaşlıq üçün yeni infrastrukturun yaradıldığını nəzərə alaraq, digər sahələrdə də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu deyib.

CISCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrix Azərbaycan Prezidenti ilə əvvəlki görüşünü məmnunluqla xatırlayaraq şirkətin ölkəmizlə uğurlu əməkdaşlıq həyata keçirdiyini bildirib. Ölkəmizə səfərindən xoş hisslər keçirdiyini deyən qonaq səfərinin məqsədinin əməkdaşlığın perspektivlərini müzakirə etməkdən ibarət olduğunu deyib və bu əməkdaşlığın «Azərbaycan 2020: Gələcəyə Baxış» İnkişaf Konsepsiyasına uyğun şəkildə həyata keçirilməsinin əhəmiyyətini qeyd edib.

Görüşdə XXIV «Bakutel» Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisinin əhəmiyyətinə toxunularaq bu tədbirin beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verdiyi qeyd olunub.

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Tahir Salahova telefonla zəng edib.

Dövlətimizin başçısı müasir Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndəsi Tahir Salahovun fəaliyyətini yüksək qiymətləndirib, onu 1-ci dərəcəli «Əmək» ordeni ilə təltif olunması münasibətilə təbrik edib.

Tahir Salahov telefon zənginə və təbrikə görə Prezident İlham Əliyevə təşəkkür edib və onu Azərbaycanın yüksək dövlət mükafatına - 1-ci dərəcəli «Əmək» ordeninə layiq gördüyünə görə dərin minnətdarlığını bildirib.

Dövlətimizin başçısı Tahir Salahova möhkəm cansağlığı və fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

Vergi Məcəlləsi: nə və necə dəyişib?..
səh. 2

Vergi Məcəlləsinə dəyişikliklər iqtisadi inkişafı stimulaşdıracaq
səh. 3

İşçilər və işəgötürənlər üçün yeni imkanlar açılır
səh. 3

«Kənddən şəhərə»: fəaliyyət meydanı genişləndirilir
səh. 5

# Vergi Məcəlləsi: nə və necə dəyişib?

## «Bu dəyişikliklər həm sahibkarları, həm də işçiləri əmək münasibətlərini rəsmiləşdirməyə təşviq edəcək»

Azərbaycanda sahibkarlığın inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması məqsədilə vergi qanunvericiliyinə mühüm dəyişikliklər edilib. Milli Məclis tərəfindən qəbul edilmiş dəyişiklikləri beş əsas istiqamət üzrə təsnif etmək olar:

- sahibkarlığın dəstəklənməsi;
- vergidən yayınmanın və «kölgə iqtisadiyyatı»nın miqyasının azaldılması;
- vergitutma bazasının genişləndirilməsi;
- vergi inzibatçılığının təkmilləşdirilməsi;
- mövcud və yeni veriləcək vergi güzəştlərinin səmərəliliyinin yüksəldilməsi.



### Kimlər 7 il müddətində gəlir vergisindən azad edilir?

Vergilər Nazirliyinin Vergi siyasəti Departamentinin baş direktoru Samirə Musayeva mətbuat nümayəndələri üçün keçirilmiş brifinqdə Məcəlləyə dəyişikliklərin əsas məzmunu və mahiyyəti, habelə 2019-cu ildə həyata keçiriləcək vergi islahatlarının başlıca istiqamətləri barədə ətraflı məlumat verib. Qeyd edib ki, vergi qanunvericiliyinə edilmiş ən mühüm yeniliklərdən biri qeyri-neft sektorunun özəl bölməsində çalışan vətəndaşların əməkhaqqından tutulan vergilər üzrə vergi güzəştlərinin verilməsidir. Dəyişikliyə əsasən, aylıq əməkhaqqı 8000 manata qədər olan vətəndaşlar üçün 7 il müddətində gəlir vergisi üzrə 100 faizlik güzəşt verilib. Əməkhaqqı 8000 manatdan çox olan muzdlu işlə əlaqədar gəlir əldə edən fiziki şəxslər isə 14 faiz gəlir vergisi ödəyəcəklər: «Bu, dövlətin qeyri-neft sektorunun özəl bölməsinə çox böyük fiskal güzəştə getməsi deməkdir. Həmin vergi güzəştinin əsas hədəfi «kölgə iqtisadiyyatı»nın həcmini azaltmaq, qeyri-rəsmi məşğulluğun qarşısını almaq, xüsusilə qeyri-neft sektorunun özəl bölməsində iqtisadi fəallığı daha da canlandırmaqdır».

> **Gəlir vergisi üzrə güzəştin əsas hədəfi «kölgə iqtisadiyyatı»nın həcmini azaltmaq, qeyri-rəsmi məşğulluğun qarşısını almaq, xüsusilə qeyri-neft sektorunun özəl bölməsində iqtisadi fəallığı daha da canlandırmaqdır**

Bundan başqa, Vergi Məcəlləsinə edilən dəyişikliklərdə pərakəndə ticarət və ictimai iaşə sektorunun dövriyyəsinin rəsmiləşdirilməsinə ictimai nəzarətin gücləndirilməsi və bu işdə istehlakçıların stimullaşdırılması məqsədilə onların belə obyektlərdə ƏDV kimi xərclədikləri vəsaitlərin bir hissəsinin geri qaytarılması nəzərdə tutulur. Samirə Musayeva bildirib ki, istehlakçılar tərəfindən pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara görə (neft və qaz məhsulları istisna olmaqla) ödənilmiş ƏDV-nin nağdsız ödənişlərdə 15 faizi, nağd ödənişlərdə isə 10 faizi nəzarət-kassa aparatının çeki əsasında istehlakçılara geri qaytarılacaq. Bu qaydaların tətbiqi ilə bağlı əlavə olaraq prosedurları özündə əks etdirən qanunvericilik aktı qəbul olunacaq. İstehlakçı fiziki şəxslərin bu qaydada stimullaşdırılması şəffaflığın təmin edilməsinə müsbət təsir göstərəcək.

### Aksizli malların siyahısı genişləndirilib

Vergi Məcəlləsinə edilən dəyişikliklər sırasında vergi uçotunda olmayan şəxslərdən nağd qaydada alına bilən mallara görə aparılan ödənişlərin ödəmə mənbəyindən vergiyə cəlb edilməsi, sadələşdirilmiş vergi ödəyicilərinin əhatə dairəsinin məhdudlaşdırılması, aksizli və məcburi nişanlanmalı malların dövriyyəsinə səmərəli vergi nəzarəti mexanizminin qurulması, aksizli malların siyahısının genişlənməsi və aksiz dərəcələrinin artırılması da var. Samirə Musayeva deyib ki, vergitutma bazasının genişləndirilməsi məqsədilə Məcəlləyə edilmiş bu dəyişiklik energetik içkilər, elektron siqaret üçün maye idxalına aksiz vergisinin tətbiqini nəzərdə tutur.

Vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə qanunvericiliyə edilən dəyişikliklərdən danışan departament rəhbəri bunların sırasında yeni nəsil nəzarət-kassa aparatlarının quraşdırılmasını, vergi ödəyicisinin iqtisadi maraq mərkəzinin olduğu yer üzrə uçota alınmasını, elektron qaimə-faktura verməli olan şəxslərin əhatəsinin dəqiqləşdirilməsini, ƏDV-nin əvəzləşdirilməsi mexanizminin təkmilləşdirilməsini və digər yenilikləri qeyd edib. Onun sözlərinə görə, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi və sahibkarlığın inkişafının dəstəklənməsi məsələləri də bu dəyişikliklərdə əksini tapıb: sadələşdirilmiş vergi dərəcəsinin bütün ölkə ərazisində 2 faizə endirilməsi, pərakəndə ticarət və iaşə sahələrində nağdsız ödənişlər üzrə güzəştlərin verilməsi və inzibati şikayət zamanı bank hesabından və ƏDV-nin depozit hesabından pul vəsaitinin silinməsinin dayandırılması bu istiqamət üzrə edilən dəyişikliklərə aiddir.

Bundan başqa, vergi güzəştlərinin iqtisadi səmərəsinin yüksəldilməsi məqsədilə Vergi Məcəlləsində bəzi dəyişikliklər edilib. Bunların sırasında özəlləşdirmədə iştirak edən investorların əmlak vergisindən azad edilməsi, vergi ödəyicisinin azı 3 il ərzində mülkiyyətində olan iştirak payının və ya səhmlərin satışına vergi güzəştinin tətbiq edilməsi və həmçinin əhalinin sosial cəhətdən həssas təbəqələrinə (şəhid övladlarına) güzəştin verilməsi kimi sosial yönümlü dəyişikliklər də var. Mühüm dəyişikliklərdən biri vergi güzəştləri əldə edən şəxslərə malların dövriyyəsinin uçotunun aparılmadığı halda maliyyə sanksiyalarının tətbiqi ilə bağlıdır.

### Sahibkarlıq subyektləri uçotu şəffaf aparmalıdır

Samirə Musayeva bildirib ki, gələn ildən Azərbaycandakı mikro və kiçik sahibkarlıq subyektlərinin balanslarında olan əsas vasaitlər üzrə sürətli amortizasiya normaları tətbiq ediləcək. Onun sözlərinə görə, kiçik sahibkarlıq subyektlərinin gəlir və xərcin uçotunun aparılması mədəniyyətinin formalaşdırılması və təkmilləşdirilməsi məqsədilə Vergi Məcəlləsi ilə müəyən olunmuş qaydada gəlirini və xərcini sənədləşdirən bu kateqoriya vergi ödəyicilərinin öz təsisçilərinə (paycılarına) ödədikləri dividendlərin ödəmə mənbəyində vergidən azad olunmasını nəzərdə tutan müddəa Vergi Məcəlləsinə daxil edilib: «Bu dəyişikliyə qədər kiçik sahibkarlıq subyektləri də xalis mənfəətini öz təsisçiləri arasında bölüşdürərkən ümumi qaydada 10 faiz dərəcə ilə vergi tuturdu. Məcəlləyə edilən dəyişikliyə əsasən, şəffaf uçot apardıqları halda sahibkarlıq subyektlərinə əlavə vergi güzəştləri veriləcək və onlar tərəfindən təsisçilərinə (payçılarına) ödənilən dividendlər ödəmə mənbəyində 10 faiz dərəcə ilə tutulan vergidən azad olunacaq».

Mikro, kiçik və orta sahibkarlıq subyektləri üçün gəlir, mənfəət, əmlak, torpaq vergisi və əlavə dəyər vergisi (ƏDV) üzrə güzəştlər barədə qeyd edilib ki, kiçik və orta biznes (KOB) klasterinə daxil olan şirkətlər KOB reyesterində qeydiyyata alındıqları andan 7 il müddətinə mənfəət, torpaq, əmlak və müvafiq təsdiqedici sənədi əsasında istehsal, yaxud emal məqsədləri üçün texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı əlavə dəyər vergisindən azad edilirlər: «Kiçik və orta biznes klasterinin iştirakçısı olan sahibkarlıq subyektləri tərəfindən KOB klaster şirkəti ilə bağlanmış müqavilə əsasında təqdim etdiyi mal (iş xidmət) üzrə əldə etdiyi gəlirin kapital xarakterli xərclərin çəkilməsinə yönəldilən hissəsi 7 il müddətinə gəlir (mənfəət) vergisindən azad edilir».

Bildirilib ki, mikro sahibkarlıq subyektləri üçün nəzərdə tutulan güzəştlərə sahibkarlıq fəaliyyətindən əldə olunan gəlir və mənfəətin 75 faizinin vergidən azad edilməsi daxildir. Bundan başqa, mikro sahibkarlıq subyekti olan fərdi sahibkarlar və hüquqi şəxslər əmlak vergisindən azad edilirlər. Həmçinin mikro və kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olan startapların startap fəaliyyəti üçün şəhadətnamə aldıqları andan etibarən 3 il müddətinə gəlir və mənfəət vergisi ödənişindən azad olunacaq: «Bəzi subyektlər əvvəlki kimi sadələşdirilmiş vergi ödəyicisi ola bilməyəcəklər, amma bu o demək deyil ki, onlar hökmən ƏDV ödəyicisi olmalıdırlar. Həmin şəxslər ya gəlir, ya da mənfəət vergisinin ödəyicisi kimi fəaliyyət göstərə bilərlər. İllik dövriyyə 200 min manata qədər olduqda isə onların məcburi qaydada ƏDV ödəyicisi olması ilə bağlı Vergi Məcəlləsinə heç bir müddəa daxil edilməyib».

Qeyd edilib ki, sadələşdirilmiş vergi ödəyicilərinin gəlir vergisinin ödəyicisi olması ödənişlərin artması demək deyil: «Gəlir vergisinin dərəcəsinin 20 faiz müəyyənləşdirilməsinin sadələşdirilmiş verginin əvvəlki 4 faizlə müqayisə edilməsi düzgün deyildir: çünki sadələşdirilmiş vergi ümumi dövriyyədən tutulur. Fiziki şəxslərin gəlir, hüquqi şəxslərin isə mənfəət vergisi gəlirlərdən xərclər çıxıldıqdan sonra yerdə qalan vəsaitdir. Biz hazırkı şərti mənəfət dərəcəsini götürsək, aylıq 10 min manat dövriyyəsi olan şəxslər hazırda 4 faizlə 400 manat vergi ödəyirlər. Gələn il isə onlar şərti olaraq, 20 faiz rentabelli işlədikləri halda, mənfəət və gəlir vergisinə nəzərdə tutulan güzəştlər hesaba alınmaqla, ayda cəmi 83 manat vergi ödəyəcəklər».

> **Dəyişikliklərdən sonra işçilərin faktiki əldə etdikləri əməkhaqqının məbləği artacaq**

### Sadələşdirilmiş vergilərin əhatə dairəsi məhdudlaşdırılıb

Samirə Musayeva jurnalistlərin «kölgə iqtisadiyyatı»nın qarşısının alınması məqsədilə Vergi Məcəlləsinə edilən dəyişikliklər barədə suallarını cavablandırıb. Bildirib ki, adətən, sadələşdirilmiş vergitutma metodunu tətbiq edən vergi ödəyiciləri vergilərini təqdim etdikləri mala (işə, xidmətə) görə əldə olunan hasilatdan (xərclər çıxılmadan) hesabladıqları üçün gəlirlərinin və xərclərinin uçotunu aparmamağa, əməliyyatları lazımı qaydada sənədləşdirməməyə meyilli olurlar. Bu isə ölkədə həyata keçirilən vergi islahatlarının məqsədlərinə, şəffaflaşma siyasətinə ziddir. Ona görə də Vergi Məcəlləsinə daxil edilmiş yeni müddəalarla sadələşdirilmiş vergitutma metodunu tətbiq etmək hüququ olan şəxslərin dairəsi məhdudlaşdırılıb. Dəyişikliyə əsasən, işçilərinin sayı qanunla müəyyən edilən həddən çox olan istehsal fəaliyyətini, topdansatış ticarət fəaliyyəti qaydasında malların təqdim edilməsini, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının satışını, xəz-dəri məmulatlarının satışını həyata keçirən şəxslərin, habelə lisenziya tələb olunan fəaliyyət növü ilə məşğul olan şəxslərin (bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər istisna olmaqla) sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ yoxdur. Qanunla sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ məhdudlaşdırılan vergi ödəyiciləri növbəti ildən mənfəət (gəlir) vergisinin ödəyicisi kimi fəaliyyət göstərəcəklər.

Qeyd edilib ki, şəffaflığın təmin olunması, vergidən yayınmanın qarşısının alınması üçün bütün istiqamətlərdə vergi inzibatçılığı və vergi nəzarəti tədbirləri zamanı qanunamüvafiq qaydada sərt addımlar atılacaq. İcarədən gəlir əldə edən şəxslərin də vergiyə cəlb olunması istiqamətində qanunun tələblərindən irəli gələn tədbirlər görüləcək: «Əgər icarəyə verən şəxs hüquqi şəxsdirsə, əldə etdiyi icarə haqlarından mənfəət vergisi ödəməlidir. İcarəyə verən şəxs vergi ödəyicisi olmayan fiziki şəxs olduğu halda ondan icarəyə götürən sahibkar tərəfindən ödənilən icarə haqqından ödəmə mənbəyində vergi tutulmalıdır. Vergi Məcəlləsinin 14-cü və 124-cü maddəsinə əsasən icarə haqqından gəlirlərə də bazar qiymətlərinin tətbiqi nəzərdə tutulur. Yəni vergi orqanı vergi nəzarəti tədbiri zamanı icarədən gəlir əldə edən şəxslərin gəlirlərinin azaldılmasına dair mənbəyi bəlli məlumata malik olduqda və ya bazar qiymətinin tətbiqinə hər hansı əsas yarandıqda bazar qiymətləri tətbiq olunmaqla icarə haqqından gəlirləri hesablamaq hüququna malikdir. Bu, vergi orqanının qüvvədə olan qanundan irəli gələn hüququdur».

### İşçilərin və işəgötürənlərin fiskal yükü azalacaq

Vergi Məcəlləsinə edilmiş dəyişikliyə uyğun olaraq, 8000 manatadək əməkhaqqı alan şəxslərin gəlir vergisindən tam azad olunması, işçilərə münasibətdə sosial sığorta ödənişlərinin 10 faizə qaldırılması ilə bağlı suala da cavab olaraq qeyd edilib ki, dəyişikliklərdən sonra işçilərin vergi yükü artmayacaq. Əksinə, bu yeniliklərin tətbiqi həm işçilər, həm də işəgötürənlər üçün sərfəli olacaq, onların ümumi fiskal yükü azalacaq: «Hazırda bununla bağlı hesablamalar üzərində iş gedir və aparılan hesablamaların nəticələri yaxın vaxtlarda ictimaiyyətə təqdim olunacaq. Həmin hesablamalarda həm işəgötürənin, həm də işçinin vergi yükünün artmadığı aydın görünəcək. Bu dəyişikliklər həm sahibkarları, həm də işçiləri əmək münasibətlərini rəsmiləşdirməyə, əməkhaqqının məbləğinin rəsmi sənədlərdə tam şəkildə göstərilməsinə təşviq edəcək. Əks halda işəgötürənləri iri məbləğli maliyyə sanksiyaları gözləyir ki, bu da heç bir halda onların maraqlarına uyğun deyil. Ümumiyyətlə, qanunvericiliyə edilən dəyişikliklərdə yalnız işçinin və işəgötürənin vergi yükünün azaldılması yolu ilə əmək bazarının leqallaşdırılması deyil, həm də işçinin gələcək pensiya təminatı da nəzərdə tutulub».

Vergi güzəştlərinin büdcə gəlirlərinin formalaşmasına mümkün mənfi təsirləri ilə bağlı suala cavab olaraq Samirə Musayeva bildirib ki, bu məsələdə ciddi problem gözlənilmir. Onun sözlərinə görə, gəlir vergisi üzrə güzəşt nəticəsində büdcə ciddi şəkildə itkilərə məruz qalmayacaq: «Nəzərə alsaq ki, gəlir vergisinin 8000 manatadək olan hissəsinin vergidən azad olunması qeyri-şəffaf və ya real əmək münasibətlərinin rəsmiləşdirilmədiyi şəraitdə verilən güzəştdir, onda dövlət büdcəsini ciddi itkilər gözləmir. Əksinə, əmək münasibətlərinin rəsmiləşdirilməsi, yüksək əməkhaqqı hesabına vergi daxilolmalarında hər hansı ciddi itkilər olmayacaq».

**Elxan SALAHOV**

# Aksiz vergisi ilə bağlı qanun təkmilləşdirilir

Milli Məclisin plenar iclasında təsdiqlənmiş «Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında» qanun layihəsinə əsasən, aksiz vergisinin dərəcəsinin ölkəyə idxal edilən bütün avtomobillər üzrə artırılması nəzərdə tutulur.

Aksiz dərəcələri necə hesablanacaq?

Minik avtomobillərində mühərrikin həcmi 2000 kubsantimetrədək olduqda mühərrikin həcminin hər kubsantimetrinə görə 0, 30 manat (hazırda 0, 20 manat);

Mühərrikin həcmi 3000 kubsantimetrədək olduqda 600 manat (hazırda 400 manat) +mühərrikin həcminin 2001-3000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə 5 manat (hazırda 3 manat);

Mühərrikin həcmi 4000 kubsantimetrədək olduqda 5600 manat (hazırda 3400 manat) +mühərrikin həcminin 3001-4000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə -13 manat (hazırda 8 manat);

Mühərrikin həcmi 5000 kubsantimetrədək olduqda 18.600 manat (hazırda 11.400 manat) +mühərrikin həcminin 4001-5000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə -35 manat ( hazırda 20 manat);

Mühərrikin həcmi 5000 kubsantimetrdən çox olduqda 53.600 manat (hazırda 31.400manat) + mühərrikin həcminin 5000 kubsantimetrdən çox hissəsi üçün hər kubsantimetrə görə 70 manat (hazırda 40 manat)

Qeyd edək ki, Azərbaycana idxal olunan avtobuslar da aksiz vergisinə cəlb ediləcək. Məcəllənin 190-cı (Aksizli malların siyahısı və vergi dərəcələri) maddəsinə edilən 190.4.1-1-ci əlavəyə əsasən mühərrikin həcmi 4000 kubsantimetrədək olduqda mühərrikin həcminin hər kubsantimetrinə görə 2 manat aksiz dərəcəsi müəyyənləşdirilib.

Mühərrikin həcmi 6000 kubsantimetrədək olduqda 8000 manat və əlavə olaraq mühərrikin həcminin 4001-6000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə 4 manat aksiz dərəcəsi müəyyənləşdirilib.

Mühərrikin həcmi 8.000 kubsantimetrədək olduqda 16.000 manat və əlavə olaraq mühərrikin həcminin 6001- 8000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə 6 manat aksiz dərəcəsi müəyyənləşdirilib.

Mühərrikin həcmi 10.000 kubsantimetrdək olduqda 28.000 manat və əlavə olaraq mühərrikin həcminin 8001-10.000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə 8 manat aksiz dərəcəsi müəyyənləşdirilib.

Mühərrikin həcmi 10.000 kubsantimetrdən çox olduqda 44.000 manat və əlavə olaraq mühərrikin həcminin 10.000 kubsantimetrdən çox hissəsi üçün hər kubsantimetrə görə 10 manat aksiz dərəcəsi müəyyənləşdirilib.

Məcəlləyə əlavə edilən 190.4.1-2-ci maddəyə əsasən ölkəyə idxal olunan avtobusların istehsal tarixi 1 ildən artıq və ya qət etdiyi məsafə 100.000 kilometrdən artıq olduqda, aksiz bu Məcəllənin 190.4.1-1-ci maddəsinə əsasən hesablanmış məbləğə 1,5 əmsal tətbiq edilməklə hesablanır.

> **Avropanın bir sıra ölkələrində avtomobillər üçün idxal vergisindən savayı yol və s. vergilər mövcuddur. Azərbaycanda isə avtomobillər idxal olunarkən yalnız aksiz və əlavə dəyər vergisinə cəlb olunurlar**

«VİP Escort» şirkətinin rəhbəri, avtomobil bazarı üzrə ekspert Rəşad Quliyev bildirib ki, bu addımın atılması avtomobil bazarında tez-tez dəyişən qiymət rentabelini stabilləşdirəcək: «Avropanın bir sıra ölkələrində avtomobillər üçün idxal vergisindən savayı yol və s. vergilər mövcuddur. Azərbaycanda isə avtomobillər idxal olunarkən yalnız aksiz və əlavə dəyər vergisinə cəlb olunurlar.

2017-ci ildən Almaniya Federativ Respublikası hökuməti ekologiyanı qorumaq üçün dizel mühərrikli avtomobillərin ölkədə istismarı və istehsalını dayandırmaq üçün müəyyən müzakirələrə başlayıb. Ətraf mühitin qorunması məqsədilə Almaniyada ilk dəfə olaraq 2008-ci ildə Berlin, Hannover və Köln şəhərlərində «Umwelt Zone» adlanan 270.1 nişanları quraşdırıldı. 3 rəngdən ibarət olan bu nişan - qırmızı (Avro2), sarı (Avro3), yaşıl (Avro4) standartına cavab verən nəqliyyat vasitələrinin şəhərə girişinə icazə verilməsi mənasını daşıyırdı. Bu, tədricən bütövlükdə ölkəyə şamil edildi. Bu qanunun tətbiqindən sonra artıq «Avro 2» standartına cavab verən avtomobillərin ixracında kifayət qədər artım müşahidə olundu. Hazırda bizim yollarımızda şütüyən bir çox maşınlar (Mercedes C klass, E klass və s.) məhz o qanundan sonra ölkəmizə idxal olunanlardır.

Avropadakı dizel «skandal»ından sonra ölkəmizə kütləvi şəkildə idxalın başlayacağı gözlənilir. Düşünürəm ki, hökumət bunu nəzərə alaraq, stabilliyi qorumaqla yanaşı, köhnə avtomobillərin vergiyə cəlb edilməsini təmin etməlidir. Xatırladım ki, 2019-cu il yanvar ayından Avropada Avro4 və Avro5 standartlı dizel mühərriki ilə işləyən avtomobillərin istismarı qadağan ediləcək. Həmin avtomobillərin isə ölkəmizə kəskin sürətdə idxalı qaçılmazdır».

Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, bu ilin yanvar-oktyabr aylarında Azərbaycana idxal edilən avtomobillərin sayı 19 min 336 ədəd olub.

**Fəxriyyə İKRAMQIZI**

# Vergi Məcəlləsinə dəyişikliklər iqtisadi inkişafı stimullaşdıracaq



Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynovun «Vergilər» qəzetinə müsahibəsi

**- Aydın müəlim, Milli Məclisdə qəbul edilmiş 2019-cu ilin dövlət büdcəsi haqqında qanun layihəsini iqtisadi-sosial göstəricilərinə görə necə səciyyələndirmək olar?**

- Dövlət büdcəsi layihəsi iqtisadi inkişaf proqnozlarına uyğun olaraq hazırlanır və ölkəmizdə həyata keçirilən iqtisadi-sosial siyasətin, iqtisadi proseslərin və inkişafın göstəricisi kimi mühüm yer tutur. Azərbaycan hökumətinin iqtisadi qurumlarının və beynəlxalq təşkilatların proqnozlarına əsasən, 2019-cu ildə ümumi daxili məhsulda 3,6%, qeyri-neft sektorunda isə 3,9% real artım gözlənilir. Bu baxımdan, 2019-cu ilin dövlət büdcəsi layihəsi Azərbaycanda proqnozlaşdırılan iqtisadi artım tempinə uyğun tərtib edilib. Layihənin hazırlanmasında dövlət büdcəsinin sosial yönümlü olması əsas götürülüb, qeyri-neft sektorunun inkişafına dəstək verilməsi, dövlətin müdafiə qüdrətinin və təhlükəsizliyinin təmin edilməsi amillərinə diqqət yetirilib.

Büdcənin gəlir və xərclərində əvvəlki illə müqayisədə əhəmiyyətli artım templəri nəzərdə tutulub. Qarşıdakı ilin dövlət büdcəsinin gəlirləri 22,9 milyard manat olmaqla cari ilin büdcə gəlirləri ilə müqayisədə 3,5% artımla tərtib edilib. Büdcənin xərcləri isə 7,3% artımla proqnozlaşdırılaraq 24,7 milyard manata çatdırılıb. Dövlət büdcəsinin əsas iqtisadi-sosial məzmunu ölkədə iqtisadi fəallığa təkan vermək, sosial rifahı artırmaq üçün maliyyə stimullaşmasını həyata keçirmək, infrastrukturun maliyyə təminatlılığını gücləndirmək, eləcə də dövlətin ümumi investisiya siyasətinin əhatəliliyini təmin etmək üçün sərmayələri artırmaqdır. Növbəti ilin büdcəsi ölkəmizdə aparılan iqtisadi islahatların dərinləşməsinə, iqtisadi siyasətin prioritet istiqamətlərinin daha real şəkildə həyata keçirilməsinə və əhalinin sosial problemlərinin həllinə imkan verəcək.

**- Büdcənin gəlirlərinin əsas mənbələri hansılardır?**

- Gələn ilin büdcə gəlirlərinin formalaşmasında əsas mənbələri Dövlət Neft Fondundan transfertlər, vergi və gömrük daxilolmaları təşkil edir. Dövlət Neft Fondundan büdcəyə transfertlər 11 milyard 364 milyon manat vəsait transfer ediləcək. Vergilər Nazirliyi tərəfindən büdcəyə 7 milyard 316 milyon manat vəsait ödənişi nəzərdə tutulub ki, bu da büdcə gəlirlərinin formalaşmasında Vergilər Nazirliyinin ikinci əsas mənbə olduğunu göstərir. Dövlət Gömrük Komitəsinin daxilolmalar isə 3 milyard 451 milyon manat nəzərdə tutulub. Büdcə gəlirlərinin strukturuna diqqət yetirsək, gəlirlərin 9,2 milyard manatının qeyri-neft sektorunun payına düşdüyünü görmək olar. Qeyri-neft sektorundan dövlət büdcəsinə daxilolmaların payı 400 milyon manat artacaq ki, bu da 2018-ci illə müqayisədə 4,7% çoxdur.

**- Büdcənin əsas xərc istiqamətləri hansılardır?**

- Büdcə xərclərinin əsas sahələri istehsal, investisiya qoyuluşları, infrastruktur təminatının yaxşılaşdırılması, sahibkarlığın stimullaşdırılması, neft sektorunda investisiya təyinatlı yeni layihələrə əlavə sərmayələrin yönəldilməsi, sosial sahəyə dövlət dəstəyi tədbirlərinin gücləndirilməsi, insanların sosial həyat şəraitinin yaxşılaşdırılması məqsədilə sosial məzmunlu layihələrə maliyyə təminatının artırılması ilə bağlıdır. Xərclər bölməsində bütün istiqamətlərdə artımlar nəzərdə tutulub. Sosial yönümlü xərclər 7 milyard 900,9 milyon manat olacaq ki, bu da hazırkı büdcə ilinə nisbətən 11,2% çoxdur. Sosial ipoteka və mənzil təminatının genişləndirilməsi istiqamətində 162 milyon manat vəsait ayrılması nəzərdə tutulub. Gələn il səhiyyəyə 1 milyard 48 milyon, təhsilə 2 milyard 274 milyon, elm sahəsinə 133,5 milyon manat vəsait ayrılacaq. Hökumət iqtisadi inkişafı sürətləndirmək və qeyri-neft sahələrini stimullaşdırmaq üçün sahibkarlığa dövlət dəstəyini gücləndirəcək. Təkcə aqrar sektora 834 milyon manat vəsait ayrılıb ki, bu da kənd təsərrüfatı sektorunda indiyə qədər ən böyük maliyyə dəstəyidir. Yeri gəlmişkən, büdcə layihəsinə sonuncu oxunuşda əlavələr olundu və dövlət büdcəsinin xərcləri 610 milyon manat artırıldı. Həmin xərclərin strukturunda əsas etibarilə sosial xarakterli proqramların maliyyələşdirilməsinin prioritet seçilməsi müsbət haldır. Vəsaitlərin 200 milyon manatının qaçqın və məcburi köçkünlərin həyat şəraitinin, mənzillə təminatının yaxşılaşdırılmasına yönəldilməsi dövlətin yüksək diqqətinin təzahürüdür. Bundan başqa, regionlarda məşğulluq üçün əlavə olaraq 80 milyon manatın ayrılması da bölgələrdə iş yerlərinin yaranmasına stimul verəcək. Gələn ilin büdcə layihəsində 2019-2020-ci illərdə dövlət hesabına ali təhsil alanlar və digər təhsil xərcləri üçün əlavə 11 milyon manatın ayrılması nəzərdə tutulub.

**- Büdcə xərclərinin böyük bir hissəsinin infrastruktur və tikinti xərclərinə yönəldilməsi müzakirələrdə müxtəlif fikir ayrılıqlarına səbəb oldu. Həmin sahələrə bu həcmdə maliyyənin yönəldilməsi zəruridirmi?**

- İnfrastruktur və tikinti iqtisadiyyatın real sektorunu əhatə edir və əlavə dəyərin yaradılmasında, məşğulluğun təmin edilməsində onların xüsusi payı var. İnşaat sektorunun inkişafı, ilk növbədə, iqtisadiyyata yatırılan sərmayə deməkdir. Bu sektorun inkişafı nəticəsində tikinti materialları bazarında canlanma yaranır. Bu baxımdan, 2019-cu ildə tikinti sektoruna dövlət investisiyalarının həcminin artması iqtisadi və sosial sahələrə yeni nəfəs verəcək. Bu siyasət mənzil sektoruna da böyük təsir göstərəcək, ümumi yaşayış sahəsi fondunu artırmaqla əmlak bazarında tələbin yumşalmasına və təklif edilən mənzillərin qiymətlərinin azalmasına səbəb olacaq. Xüsusilə də dövlətin sosial layihələrinin (Mənzil İnşaatı Dövlət Agentliyinin inşa etdiyi) və digər bu tipli layihələrin miqyası da artacaq.

**- Büdcədə neftin bir barelinin satış qiymətinin 60 dollardan hesablanması risklər yarada bilərmi?**

- Dövlət büdcəsi layihəsi dünyada gedən qlobal maliyyə-iqtisadi proseslər nəzərə alınmaqla tərtib edilib. Təbii ki, dünya bazarlarında neftin qiyməti ilə bağlı müşahidə olunan müəyyən sabitləşmə və artım proseslərinin ölkə iqtisadiyyatına müsbət təsiri ehtimal olunsa da, regiondakı iqtisadi təlatümlərin ölkə iqtisadiyyatına potensial mənfi təsirləri nəzərdən qaçılmazdır. Ancaq Azərbaycan iqtisadiyyatında neftlə yanaşı, digər sahələrin dinamik inkişafı xarici riskləri azaltmağa imkan verir. Son 2 ildə iqtisadi artımın qeyri-neft sektorunun hesabına bərpa olunması, həm ixracın (xüsusilə də qeyri-neft ixracının) artması, həm də valyuta rezervlərinin artımı ölkəmizin güclü maliyyə ehtiyatlarının formalaşmasını təmin edib. Hazırda ölkəmizin tədiyyə balansının cari vəziyyəti, müsbət saldo manata təzyiqləri heçə endirir. 2019-cu ilin büdcə gəlirlərinin 9,2 milyard manatı qeyri-neft sektorunun payına düşür və bu əvvəlki illə müqayisədə 400 milyon manat artıqdır. Yəni gələn proqnozlaşdırılan ÜDM-in, ixracın və xarici investisiyaların gözlənilən artımı makroiqtisadi sabitlik və tədiyyə balansı fonunda güclü «təhlükəsizlik yastığı» yaradır və büdcədə nəzərdə tutulmuş bütün hədəfləri reallaşdırmağa imkan verir.

**- 2019-cu ilin büdcə vəsaitlərinə nəzarətlə bağlı yeni yanaşma müəyyən edilib. Bu siyasətin əsas fəlsəfəsi nədən ibarətdir?**

- Büdcə sistemi haqqında qanunun tələblərinə uyğun olaraq 2019-cu ildən ilk dəfə olaraq büdcə siyasətində xarici mənşəli makroiqtisadi təhdidlərin ölkə iqtisadiyyatına sirayət etməsinin qarşısının alınması monetar və fiskal siyasətin əsas prioritetlərindən biri kimi nəzərə alınıb.

Gələn ilin və növbəti illərin icmal və dövlət büdcələri yeni qəbul edilmiş büdcə qaydasına uyğun olaraq tənzimlənəcək. Yeni qaydalara əsasən, neft qiymətlərinin qalxıb-enməsi zamanı dövlət xərclərinin prosiklikliyinin qaldırılması və dayanıqlı olması əsas şərtlərdən biri kimi müəyyən olunub. Yeni büdcə qaydalarına uyğun olaraq, büdcə vəsaitlərinin istifadəsinin səmərəliliyi ilə bağlı yeni mexanizmlər nəzərdə tutulur. Bunlar, əsasən, büdcənin sabitliyi və uzunmüddətli dayanıqlılığının təmin edilməsi, şəffaflığın, ortamüddətli maliyyə proqnozlaşdırılmasının effektivliyinin və səmərəliliyinin, maliyyə nəzarətinin və monitorinqinin tətbiq edilməsidir. Yeni büdcə qaydasının tətbiqi ilə əlaqədar yeni ildən büdcə xərclərinə müəyyən məhdudiyyətin qoyulması nəzərdə tutulur ki, bu da büdcənin dayanıqlılığına xidmət edir.

**- Milli Məclisdə Vergi Məcəlləsinə dəyişikliklərlə bağlı qanun layihəsi də qəbul olundu. Yeni dəyişiklikləri necə qiymətləndirərdiniz?**

- Hazırda vergi sistemində geniş və dərin islahatlar davam etdirilir. Bu, parlamentdə büdcə müzakirələri zamanı çox aydın şəkildə nəzərə çarpdı.Vergi Məcəlləsinə iqtisadi inkişafı stimullaşdıran və iqtisadiyyatda şəffaflığın artmasını təmin edən çox mühüm dəyişikliklər qəbul olundu. Həmin dəyişikliklərin ən mühüm istiqamətlərindən biri kimi qeyri-dövlət neft sektoruna və sahibkarlığa verilən güzəştlərin xüsusi əhəmiyyəti vardır. İndiyə qədər biznes sektoru tərəfindən ən çox təklif edilən məsələlərdən biri sosial sığorta vergisinin yüksək olması ilə bağlı idi. Müəssisə və təşkilatlar, biznes sektorunun nümayəndələri, ümumiyyətlə işəgötürənlər belə bir arqument gətirirlər ki, sosial vergi yükünün çox olması işçilərlə əmək müqaviləsi bağlamağa mane olur. Bu isə qeyri-leqal əmək bazarının yaranmasına, kölgə iqtisadiyyatının genişlənməsinə şərait yaradır. Həmin sahədə ciddi nizam-intizamın yaradılması, iş yerlərində əmək münasibətlərinin tənzimlənməsi və rəsmiləşdirmənin stimullaşdırılması, qeyri-rəsmi əmək münasibətlərinin daha çox yayıldığı qeyri-neft özəl sektorda işəgötürənlərin işçi qüvvəsi üzrə xərclərinin əhəmiyyətli azaldılması məqsədilə çox ciddi, inqilabi vergi islahatları aparılıb. Özəl sektorun təmsilçilərinə çox böyük vergi güzəştləri olunub. Hesab edirəm ki, qeyri-neft özəl sektor üzrə 7 il müddətinə vergi güzəştlərinin tətbiqi işəgötürənlərin əmək xərclərini azaltmaqla, qeyri-rəsmi məşğulluğun və əməkhaqqının leqallaşdırılmasına, əmək müqavilələri ilə çalışan muzdlu işçi sayının artırılmasına imkan verəcək. İslahat nəticəsində iqtisadiyyatın bütün sektorlarında, xüsusilə qeyri-neft sektorunda işəgötürənlərin əmək xərcləri əhəmiyyətli şəkildə azalacaq ki, bu da özəl sektorun rəqabət qabiliyyətinin artırılmasına və iqtisadi artımın stimullaşdırılmasına xidmət edəcək.

Vergi sahəsində ən mühüm yeniliklərdən biri gələn ildən kiçik və orta sahibkarlara əlavə güzəştlərin tətbiqidir. Xüsusilə də kənd təsərrüfatı mülkiyyətçilərinin sənaye klasterlərində təmsil olunan biznesin vergilərdən azad olunması həmin sahələrə investorların cəlb olunmasına, yeni iş yerlərinin yaradılmasına və rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının və ixracının güclənməsinə imkan verəcək.

Nağdsız əməliyyatlar zamanı istehlakçılardan tutulmuş ƏDV-nin bir hissəsinin geri qaytarılması bu sahə üçün stimullaşdırıcı təsir yaradacaq.

Vergi sahəsində başlanmış yeni islahatlar kursu indiyə qədər yaranmış problemlərin köklü həllinə, vergi inzibatçılığının ən müasir formada təşkilinə imkan verəcək. Vergi orqanları ilə sahibkarlar arasında münasibətlərin yeni müstəvidə qurulması vergi inzibatçılığının təkmilləşdirilməsinə xidmət edəcək.

> “Vergi Məcəlləsinə iqtisadi inkişafı stimullaşdıran və iqtisadiyyatda şəffaflığın artmasını təmin edən çox mühüm dəyişikliklər qəbul olundu

**Elbrus CƏFƏRLİ**

# İşçilər və işəgötürənlər üçün yeni imkanlar açılır

## Vergi yükünün aşağı salınması işçilərin sayının gizlədilməsi və əməkhaqqı sistemində ikili mühasibatlıq hallarının aradan qaldırılmasına kömək edəcək

**İqtisadi cəhətdən inkişaf etmiş dövlətlər sırasına qoşulmağı qarşıya məqsəd qoyan Azərbaycanda ölkə vətəndaşlarının rifah halının durmadan yüksəldilməsi ən prioritet vəzifədir. Aparılan köklü islahatlar, qəbul olunmuş dövlət proqramları həmin vəzifənin uğurla həyata keçirilməsinə yönəldilib. Bu sahədə qarşıya çıxan problemlər və həllini gözləyən məsələlər də dövlətin diqqət mərkəzindədir.**

Mütəxəssislərin apardığı təhlillərə əsasən, Azərbaycanda «kölgə iqtisadiyyatı»nın genişlənməsinin əsas səbəblərindən biri kimi əməkhaqqıdan tutulan sosial sığorta dərəcəsi və vergi yükü göstərilir. Bu, əksər hallarda əməkhaqqının məbləğinin düzgün göstərilməməsinə və işçilərlə əmək münasibətlərinin rəsmiləşdirilməməsində özünü büruzə verir. Hazırda ölkədə iqtisadi fəal əhalinin sayının 5 milyon nəfərə yaxın olmasına baxmayaraq, muzdlu işçilərin sayı məşğul əhalinin cəmi 31,5 faizini təşkil edir. Başqa sözlə, əmək müqaviləsi bağlayanların sayı iqtisadi fəal əhalinin sayının üçdə birindən azdır. 1,5 milyon nəfərin kənd təsərrüfatında çalışdığı nəzərə alınsa, qalan vətəndaşların sahibkarlıq fəaliyyəti və ya əmək müqaviləsi bağlamadan fərdi əməklə məşğul olduğu aydın görünər.

Bəs faktiki əmək fəaliyyəti ilə məşğul olan əhalinin sayının rəsmi sənədlərdə bu qədər aşağı göstərilməsinin kökündə nə dayanır?

Mövcud qanunvericiliyə əsasən, ödənilmiş əməkhaqqına görə işçilərin və işəgötürənlərin ümumi vergi yükü 40-51% arasında dəyişir. Bu səbəbdən də həm işəgötürənlər, həm də işçilər iş yerlərinin rəsmiləşdirilməsindən yayınır və əməkhaqqının həqiqi məbləğinin gizlədilməsinə üstünlük verirlər. Ona görə də Azərbaycan hökuməti problemin köklü şəkildə həllinə nail olmaq məqsədilə müvafiq islahatları davam etdirir. Bu məqsədlə Vergi Məcəlləsinə təklif olunan dəyişikliklər artıq Milli Məclisdə qəbul edilərək təsdiq olunmaq üçün ölkə prezidentinə təqdim olunub. Vergi qanunvericiliyinə edilən dəyişikliklərə uyğun olaraq, əməkhaqqı üzrə vergi yükünün aşağı salınması və əməkhaqqının leqallaşdırılması istiqamətində həyata keçiriləcək islahatlar iki əsas komponenti əhatə edəcək. Hazırda ödənilmiş əməkhaqqına görə gəlir əldə edən şəxslər gəlir vergisinin (14 faiz) və sosial sığorta ayırmalarının (3 faiz sosial sığorta + 0,5 faiz işsizlikdən sığorta), işəgötürənlər isə yalnız sosial sığorta ayırmalarının (22 faiz sosial sığorta + 0,5 faiz işsizlikdən sığorta) ödəyiciləridir. Bu ödəmələr işəgötürənlər tərəfindən tutularaq dövlət büdcəsinə ödənilir.

2019-cu ilin yanvarından həyata keçiriləcək islahatlar nəticəsində neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid olan subyektlərlə münasibətdə 7 il müddətinə gəlir vergisi üzrə güzəşt tətbiq ediləcək. Vətəndaşların pensiya hüquqlarını nəzərdə tutan mövcud sığorta sisteminin təminat və uçot prinsiplərinin, habelə pensiya və müavinətlərin vaxtında maliyyələşdirilməsi üzrə mövcud ödəmə və hesabatlılıq sistemləri saxlanılacaq.

İslahat modelinə əsasən, aylıq məbləği 8000 manatadək olan əmək haqları üzrə fiziki şəxslərin gəlir vergisi 14 faizdən 0 faizə endiriləcək, əmək haqqının 8000 manatdan yuxarı olan hissəsi isə 14 faiz dərəcə ilə gəlir vergisinə cəlb olunacaq. Güzəşt məbləğinin hazırkı 173 manatdan 200 manata qaldırılması (büdcə təşkilatlarına, dövlət müəssisələrinə, neft-qaz sektoruna da şamil edilir) nəzərdə tutulur.

Sosial sığorta haqlarının və işsizlikdən sığorta dərəcələrinə gəlincə, bu, aşağıdakı qaydada müəyyən olunur:

- əməkhaqqının 200 manatadək olan məbləği üzrə: işçi - 3,5 faiz, işəgötürən - 22,5 faiz (cəmi 26 faiz);

- əməkhaqqının 200 manatdan yuxarı olan hissəsi üzrə: işçi - 10,5 faiz, işəgötürən - 15,5 faiz (cəmi 26 faiz).

İslahat nəticəsində qeyri-neft və qeyri-dövlət sektorlarında işəgötürənlərin əmək xərcləri əhəmiyyətli şəkildə azalacaq ki, bu da özəl sektorun rəqabət qabiliyyətinin artırılmasına və iqtisadi artımın stimullaşdırılmasına xidmət edəcək. Muzdlu işçilərin vergi yükünün aşağı salınması işəgötürənlərlə yanaşı, iqtisadiyyatın bütün sektorlarında, xüsusilə özəl sektorda çalışan muzdlu işçilərin də gəlirlərinin bir hissəsinin onlarda qalmasını şərtləndirəcək. Leqallaşma nəticəsində faktiki əməkhaqqının rəsmi sənədlərdə tam şəkildə göstərilməsi işçilərin pensiya və digər sosial hüquqlarının təmin olunmasına, habelə vətəndaşların kredit almaq imkanlarının genişlənməsinə şərait yaradacaq.

Xatırladaq ki, bu islahatların qeyri-dövlət sektorunda çalışan təxminən 450 min nəfərin əmək gəlirlərinin artırılmasına xidmət edəcəyi proqnozlaşdırılır. Güzəştli məbləğin tətbiqi nəticəsində işçilərin əməkhaqlarında azalma olmayacaq. İslahatlardan sonra qeyri-rəsmi məşğulluğun səviyyəsi azalacaq və sahibkarların əmək münasibətlərini rəsmiləşdirməsinə iqtisadi marağı artacaq.

Beləliklə, qanunvericiliyə edilən dəyişikliyə əsasən, Vergi Məcəlləsi üzrə əməkhaqqından gəlir vergisinin hesablanması 2 kateqoriyaya bölünəcək: dövlət və neft-qaz sahəsində fəaliyyəti olanlar; neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərində işləyən fiziki şəxslər.

Dövlət və neft-qaz sahəsində fəaliyyəti olanlar üçün əməkhaqqından gəlir vergisinin hesablanması Cədvəl 1-dəki kimi olacaq.

Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərində işləyən fiziki şəxslərin muzdlu işdən aylıq gəlirlərindən vergi 2019-cu il yanvarın 1-dən 7 il müddətində Cədvəl 2-yə uyğun qaydada tutulacaq.

**Cədvəl 1**

| Vergi tutulan aylıq gəlirin məbləği | Verginin məbləği |
|---|---|
| 2500 manatadək | 14 faiz |
| 2500 manatdan çox olduqda | 350 manat + 2500 manatdan çox olan məbləğin 25 faizi |

**Cədvəl 2**

| Vergi tutulan aylıq gəlirin məbləği | Verginin məbləği |
|---|---|
| 8000 manatadək | 0 faiz |
| 8000 manatdan çox olduqda | 8000 manatdan çox olan məbləğin 14 faizi |

Hər iki kateqoriya üzrə ayda 500 manat əməkhaqqı alan işçilərin vergi və sosial sığorta ödənişlərinin hesablanmasına dair nümunələri təqdim edirik:

**Dövlət və neft-qaz sahəsində fəaliyyət göstərənlər üçün:**

*Vergi üzrə:*

500 - 200 (2500 manata qədər 200 manat güzəşt olunur) = 300 manat

300 manat x 14 faiz (gəlir vergisi) = 42 manat

*Sosial sığorta üzrə:*

500 x 3,5 faiz = 17,5 manat

Cəmi: 59,5 manat

500 manat - 59,5 manat = 440,5 manat. Yəni dövlət və neft-qaz sahəsində çalışan və aylıq maaşı 500 manat olan işçilər vergi və sosial sığorta haqlarını ödədikdən sonra 440,5 manat əməkhaqqı alacaq.

**Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektorunda çalışanlar üçün:**

*Vergi üzrə:*

Gəlir vergisi - 0 faiz (8000 manata qədər gəlir vergisi üzrə güzəşt olunur)

*Sosial sığorta üzrə:*

6+ (500-200) x10,5 faiz = 37,5 manat

Cəmi: 37,5 manat.

500-37,5=462,5 manat. Yəni neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektorunda çalışan və aylıq maaşı 500 manat olan işçilər vergi və sosial sığorta haqlarını ödədikdən sonra 462,5 manat əməkhaqqı alacaqlar.

**Elxan SALAHOV**

Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin
Vergi siyasəti departamentinin baş direktoru
vergi ödəyicilərinin suallarına cavab verir

## Ödəmə mənbəyində sadələşdirilmiş vergi

***Yaşayış evinin bacının ərinə bağışlanması zamanı notarius tərəfindən ödəmə mənbəyində sadələşdirilmiş vergi tutulurmu?***

Vergi Məcəlləsinin (VM) 13.2.7.7-ci maddəsinə əsasən bacıların ərləri və qardaşların arvadları vergi ödəyicisinin ailə üzvlərinə aid edilmişdir.

Təqvim ili ərzində hədiyyə, maddi yardım və miras vergi ödəyicisinin ailə üzvlərindən alındığı halda, onun tam dəyəri gəlir vergisindən azaddır (VM, maddə 102.1.3.2).

Yaşayış sahələrinin təqdim edilməsi (fiziki şəxsin azı 5 (beş) il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi, VM-in 102.1.3.2-ci, 102.1.18-ci, 106.1.16-cı, 144.1.1-ci və 144.1.2-ci maddələrində nəzərdə tutulmuş hallarda təqdim edilmə, həmçinin VM-in 221.5-ci maddəsinə uyğun olaraq sadələşdirilmiş vergi hesablanmış tikinti sahələrinin həmin bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs tərəfindən təqdim edilməsi halları istisna olmaqla) üzrə müqavilələri təsdiq edən notarius ödəmə mənbəyində vergini tutmağa borcludur (VM, maddə 150.1.9).

Mülkiyyətində olan yaşayış sahələrinin təqdim edilməsini (fiziki şəxsin azı 5 (beş) il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi, həmçinin VM-in 102.1.3.2-ci, 102.1.18-ci, 106.1.16-cı, 144.1.1-ci və 144.1.2-ci maddələrində nəzərdə tutulmuş təqdim edilmə halları istisna olmaqla) həyata keçirən şəxslər sadələşdirilmiş verginin ödəyiciləridir (VM, maddə 218.4.3).

**Qeyd olunanlara əsasən:**

Mülkiyyətində olan yaşayış sahəsinin vergi ödəyicisi tərəfindən bacısının ərinə bağışlanması ailə üzvləri arasında yaşayış sahəsinin təqdim edilməsi hesab edildiyindən notarius tərəfindən ödəmə mənbəyində sadələşdirilmiş verginin tutulması vergi qanunvericiliyində nəzərdə tutulmamışdır.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya
**s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

## ƏRAZİ VERGİ ORQANLARINDA

- 12 saylı Ərazi Vergilər Departamentinin əməkdaşları Goranboy rayon və Naftalan şəhər Xidmət mərkəzlərində vergi ödəyiciləri ilə görüşlər keçirib. Görüş zamanı Vergi Məcəlləsi ilə müəyyən edilmiş hüquq və vəzifələr, vergitutma məqsədləri üçün uçotun aparılması qaydaları, vergi növləri üzrə bəyannamələrin təqdim edilməsi, vergi öhdəlikləri və onların qanunla müəyyən edilmiş müddətlərdə yerinə yetirilməsi, «Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikası Qanunu, «Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» haqqında məruzələr edilib. Tədbirdə vergi mükəlləfiyyətlərinə uyğun olaraq bəyannamələrin təqdim edilməsi, vergi öhdəlikləri və onların qanunla müəyyən edilmiş müddətlərdə yerinə yetirilməsi barədə suallar cavablandırılıb.

- 3 saylı Ərazi Vergilər İdarəsi əməkdaşlarının topdansatış ticarət və istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri, eləcə də rayonların ərazisində daşınmaz əmlakın icarəyə verilməsi (bazarlar) fəaliyyəti ilə məşğul olan sahibkarlarla keçirilmiş görüş «Vergi orqanlarında aparılan islahatlar, Vergi Məcəlləsinə təklif edilən dəyişikliklər barədə qanun layihəsi, «Elektron qaimə-fakturanın tətbiqi və vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması qaydaları» mövzularına həsr edilmişdir. Görüş zamanı vergi ödəyicilərini daha çox maraqlandıran suallar cavablandırılmış, aktual məsələlərə aydınlıq gətirilmişdir.

## Sahibkarlıq fəaliyyəti və lizinq

Noyabrın 30-da Vergilər Nazirliyində lizinq şirkətləri ilə Vergi Məcəlləsinə edilən dəyişikliklərlə bağlı görüş keçirilib. Görüşdə Dövlət qeydiyyatı və uçota nəzarət, Hüquq, Vergi siyasəti, İqtisadi təhlil və ekspertiza departamentlərinin nümayəndələri iştirak ediblər. Vergilər Nazirliyinin Dövlət qeydiyyatı və uçota nəzarət departamentinin direktoru Ələkbər Məmmədov Vergi Məcəlləsinə 2019-cu il üzrə təklif edilən əsas dəyişikliklərin istiqamətləri barədə danışaraq qeyd edib ki, vergi islahatlarının əsas istiqamətləri sahibkarlığın inkişafının dəstəklənməsi, kölgə iqtisadiyyatının azaldılması və iqtisadiyyatın şəffaflaşdırılması, vergitutma bazasının genişləndirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi və vergi güzəştlərinin iqtisadi səmərəliliyinin yüksəldilməsinə xidmət edir. Bildirib ki, özəl sektorda çalışan işçilərin əməkhaqqından tutulan gəlir vergisi üzrə vergi yükünün əhəmiyyətli dərəcədə azaldılması nəzərdə tutulub, bu, özəl sektorun təmsilçisi olan lizinq şirkətləri üçün də mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, nəzərdə tutulan mühüm dəyişikliklərdən biri qeyri-neft və sahibkarlıq sektorunun inkişafının dəstəklənməsidir ki, bu da ölkəmizdə fəaliyyət göstərən 174 lizinq şirkətinin səmərəli fəaliyyətini də təmin edəcək.

Gələn ildən lizinq yolu ilə mal satışında da ciddi dəyişikliklər nəzərdə tutulub. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, əməliyyat o zaman maliyyə lizinq əməliyyatı hesab ediləcək ki, lizinq alan hüquqi şəxs və ya fərdi sahibkar olsun, lizinq obyekti isə əsas vəsait olsun. Vergi Məcəlləsinin əvvəlki redaksiyasında (140.1 maddə) icarəyə verən maddi əmlakı maliyyə lizinqi müqaviləsi üzrə icarəyə verilirdisə, vergitutma məqsədləri üçün icarəçi əmlakın sahibi, icarə ödəmələri isə icarəçiyə amortizasiya normalarına yeni əmsal tətbiq ediləcək ki, bu da lizinq alanların təkrar investisiya imkanlarını artıracaq.

Tədbirdə çıxış edən lizinq şirkətlərinin nümayəndələri qeyd ediblər ki, lizinq şirkətləri üçün lizinq predmeti olan istehsal yönümlü avadanlıqların ölkəyə idxalı zamanı ƏDV-dən azadolma nəzərdə tutulsa da, bəzi hallarda bu vergi güzəştinin tətbiqi mümkün olmur.

Sonda lizinq şirkətlərinin nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.

**ELBRUS**

# Vergilər Nazirliyinin 3-cü sosial çarxı təqdim olunub

Vətəndaşlar arasında vergi mədəniyyətinin yüksəldilməsi, cəmiyyətdə könüllü vergiödəmə vərdişinin formalaşdırılması Vergilər Nazirliyinin fəaliyyətində mühüm əhəmiyyət kəsb edir. Bu sahədə təbliğat, məlumatlandırma və maarifləndirmə işinin gücləndirilməsi üçün nazirliyin təşəbbüsü ilə daha bir sosial reklam çarxı ictimaiyyətə təqdim olunub.

«Sağlam dövlət naminə» devizi ilə hazırlanmış videomaterialda vətəndaşın dövlət büdcəsinə ödədiyi vergilərin hara və nə üçün xərclənməsi barədə ətraflı məlumat verilir. Həmin vəsaitlərin cəmiyyətin mənafeyi naminə sərf edildiyi tamaşaçılara obrazlı şəkildə çatdırılır. Reklam çarxının ictimaiyyətə verdiyi başlıca mesajlar bundan ibarətdir ki, dövlət büdcəsi vergilərdən asılıdır, vergiləri ödəməklə cəmiyyətin hər bir üzvü büdcənin formalaşmasında iştirak edir.

Xatırladaq ki, Vergilər Nazirliyinin sifarişi əsasında 2018-ci ilin oktyabrından «Sağlam dövlət naminə» sosial reklam çarxı hazırlanaraq kütləvi informasiya vasitələrində, eləcə də sosial şəbəkələrdə yayımlanır. Əvvəlki iki sosial reklam çarxında olduğu kimi üçüncü buraxılışda da əks olunan süjetlər real hadisələrə əsaslanır və həkimlərin cəmiyyətdəki rolunu əks etdirir.

Vergilər Nazirliyi müxtəlif peşə sahiblərinin cəmiyyətdəki rolunu əks etdirən sosial reklam çarxlarının hazırlanmasına dəstək göstərməyi davam etdirəcək.





AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ
SAĞLAM DÖVLƏT NAMİNƏ

**ELXAN**

# Müəssisələrin əmlak vergisi

**Müəssisənin əmlak vergisi nədir?**

Müəssisənin əmlak vergisi dedikdə, müəssisənin balansında olan əsas vəsaitlərə görə hesablanıb ödənilən vergi başa düşülür. Vergitutma obyekti olan rezident müəssisələr və Azərbaycan Respublikasında özünün daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirən qeyri-rezident müəssisələr əmlak vergisinin ödəyiciləridir. Əmlak vergisi üzrə müəssisələrin balansında olan əsas vəsaitlərin orta illik dəyəri Azərbaycanda özünün daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirən qeyri-rezident müəssisələr üçün - yalnız daimi nümayəndəliklə bağlı olan əsas vəsaitlərin orta illik dəyəri vergitutma obyekti sayılır. Müəssisələr əsas vəsaitlərin orta illik qalıq dəyərindən 1% dərəcəsi ilə əmlak vergisi ödəyirlər.

Bu sahədə də müəyyən vergi güzəştləri və azadolmalar mövcuddur. Dövlət hakimiyyəti orqanları, büdcə təşkilatları və yerli özünüidarəetmə orqanları, Mərkəzi Bank və onun qurumları, dövlət fondları və əlillərin, sağlamlıq imkanları məhdud uşaqların ictimai təşkilatları əmlak vergisini ödəməkdən azaddırlar. Vergitutma məqsədləri üçün müəssisənin əmlakının dəyəri ekologiya, yanğından mühafizə və ya mülki-müdafiə üçün istifadə edilən obyektlərin, məhsulötürücü kəmərlərin, dəmir və avtomobil yollarının, rabitə və enerjiötürücü xətlərin, meliorasiya və suvarma sistemi obyektlərinin, yol vergisinə cəlb edilən avtonəqliyyat vasitələrinin, təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrinin yalnız bu sahələrin təyinatı üzrə istifadə etdiyi obyektlərinin dəyərində azaldılır. Azərbaycan Respublikası Prezidentinin qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və fiziki şəxslər həmin parkda qeydiyyata alındıqları hesabat ilindən başlayaraq 7 il müddətinə bu parkdakı əmlaklarına görə əmlak vergisini ödəməkdən azaddırlar. Azərbaycan Respublikasının Prezidentinin qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının idarəedici təşkilatı və ya operatoru həmin parkın ərazisində yerləşən əmlaklarına görə əmlak vergisini ödəməkdən azaddırlar. Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan ( o cümlədən sənaye üsulu ilə) hüquqi şəxslər 2019-cu ilin yanvar ayının 1-dək bu fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən azaddırlar.

Əmlak vergisi müəssisənin əmlakının orta illik qalıq dəyərinə əsasən hesablanır. Müəssisənin əmlakı qalıq dəyərindən artıq qiymətə sığortalandığı halda, əmlak vergisi bazar qiyməti nəzərə alınmaqla hesablanır. Sığortalanan əmlakın dəyəri bazar qiyməti nəzərə alınmaqla hesablandığı halda, həmin əmlaka əmlakın orta illik qalıq dəyərindən əmlak vergisinin hesablanması qaydası tətbiq edilmir.

**Vergi təqvimi**

Müəssisənin əmlak vergisi üçün vergi dövrü təqvim ili sayılır. Müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edir. Müəssisələrin əmlak vergisi dövlət büdcəsinə ödənilir. Vergitutma məqsədləri üçün müəssisənin əmlakının orta illik qalıq dəyəri götürülür. Müəssisə hesabat ili ərzində yaradıldıqda və ya əmlak vergisi ödəyicisi olduqda onun əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) yaradıldığı və ya əmlak vergisi ödəyicisi olduğu tarixə və ilin sonuna qalıq dəyəri toplanaraq 24-ə bölünür və müəssisənin yaradıldığı və ya əmlak vergisi ödəyicisi olduğu aydan sonra, ilin sonuna qədər olan ayların sayına vurulur.

Müəssisə hesabat ili ərzində ləğv edildikdə və ya sadələşdirilmiş verginin ödəyicisi olduqda, onun əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) ilin əvvəlinə və ləğv edildiyi və ya sadələşdirilmiş verginin ödəyicisi olduğu tarixə qalıq dəyəri toplanaraq 24-ə bölünür və ilin əvvəlindən müəssisənin ləğv edildiyi və ya sadələşdirilmiş verginin ödəyicisi olduğu aya qədər olan ayların sayına vurulur.

**Misala baxaq...**

Müəssisənin əmlak vergisinin hesablanması:
- Əmlakın ilin əvvəlinə qalıq dəyəri...........28000,0
- Əmlakın ilin sonuna qalıq dəyəri..........24000, 0
- Orta illik qalıq dəyəri...........26000,0

(28000, 0+24000, 0)/2
**Əmlak vergisi:**
26000, 0*1% =260,0 manat

**Ekspert rəyi**

İqtisadçı ekspert Rəşad Əliyev bildirib ki, əmlak vergisinin tətbiqində ölkədə aparılan iqtisadi islahatların ümumi istiqamətləri öz əksini tapıb. Məsələn, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən, sənaye üsulu ilə) hüquqi və fiziki şəxslərin fəaliyyət prosesində istifadə etdikləri əsas vəsaitlərin 2019-cu ilə kimi əmlak vergisinin ödənilməsindən azad olunması aqrar sektorunun inkişafına xidmət edir. Bu, həmin sahədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin vergi yükünü və xərclərini azaldır.

**F.İKRAMQIZI**

# «Startap» layihələrinə vergi güzəşti müəyyənləşdirilib

Azərbaycanda mikro və ya kiçik sahibkarlıq subyekti olan və hüquqi şəxs kimi fəaliyyət göstərən vergi ödəyicilərinin «Startap şəhadətnaməsi» aldığı tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri mənfəət üç il müddətinə vergidən azad olunub.

Vergi Məcəlləsinə edilən dəyişikliyə əsasən, paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və dolayısı ilə dövlətə məxsus olan hüquqi şəxslər və dövlətin adından yaradılan publik hüquqi şəxslər istisna olmaqla, vergi ödəyicisinin hesabat ilinin mənfəətinin 10%-dən çox olmayan hissəsinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən müəyyən edilən meyarlara cavab verən təhsil, səhiyyə, idman və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlara köçürülən hissəsi 2019-cu il 1 yanvar tarixindən 10 il müddətinə vergidən azad olunur.

Xatırladaq ki, bu güzəşt yalnız nağdsız qaydada ödənilən xərclərə münasibətdə tətbiq edilir. Başqa sözlə, təhsil, səhiyyə, idman və mədəniyyət sahəsinə ayrılan sponsorluq vəsaitləri vergidən azad edilib. Vergi Məcəlləsinə edilən dəyişikliyə əsasən, vergi ödəyicisinin azı üç il ərzində mülkiyyətində olan iştirak payının və ya səhmin təqdim edilməsindən əldə olunan gəlirlərinin 50%-i, mikrosahibkarlıq subyekti olan hüquqi şəxslərin sahibkarlıq fəaliyyətindən əldə etdikləri mənfəətin 75%-i vergidən azad olunanlar siyahısına əlavə olunur. Bundan başqa, Kiçik Orta Biznes (KOB) klaster şirkətinin mənfəəti - KOB klaster şirkətinin KOB klaster şirkətlərinin reyestrinə daxil edildiyi tarixdən yeddi il müddətinə, KOB klasterin iştirakçısı olan hüquqi şəxsin KOB klaster şirkəti ilə bağlanmış müqavilə əsasında təqdim etdiyi mal (iş, xidmət) üzrə əldə etdiyi mənfəətin kapital xarakterli xərclərin çəkilməsinə yönəldilən hissəsi yeddi il müddətinə vergidən azad ediləcək.

**E.SALAHOV**

## Vergi əməkdaşları beynəlxalq konfransda

Noyabrın 21-22-də Macarıstanın paytaxtı Budapeşt şəhərində «Dövlət gəlirləri administrasiyalarının fəaliyyətində təhlükəsizlik və xidmətin inkişafı ilə bağlı yeni istiqamətlər» mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Tədbirdə ölkəmizi Vergilər Nazirliyinin Mərkəzi aparatının Beynəlxalq təcrübələrin araşdırılması və layihələrin idarə olunması şöbəsinin əməkdaşı Tural Babayev, Tədris Mərkəzinin Vergi qanunvericiliyi və təsərrüfat hüququ kafedrasının müəllimi Orxan Balayev və Dövlət Gömrük Komitəsinin Risklərinin idarə olunması idarəsinin rəisi Ziya Ağayev təmsil etmiş, ölkəmizdə aparılan islahatlar, idxal-ixrac prosesinə vergi və gömrük orqanlarının birgə nəzarəti ilə bağlı görülmüş işlər və s. önəmli məsələlərlə bağlı məlumat vermişlər.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Yanvar-oktyabr ayları ərzində qeyri-neft sektoru üzrə **1 milyard 351 milyon** dollarlıq mal ixrac olunub.
- «Bakutel-2018» XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisində **20** ölkədən **230** şirkət iştirak edir.
- Cari ilin yanvar-oktyabr aylarında Bakı şəhərində tikinti materiallarının istehsalı sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən istehsal edilən məhsulun ümumi dəyəri ötən ilin müvafiq dövrünə nisbətən sabit qiymətlərlə 9,9 faiz artaraq **400,0 milyon** manat təşkil edib.

# «Kənddən şəhərə»: fəaliyyət meydanı genişləndirilir

2016-cı ildə qəbul edilmiş «Kənd təsərrüfatı kooperasiyası haqqında» Qanun ölkədə kənd təsərrüfatı kooperasiyasının formalaşmasının və inkişafının, kooperativlərin təşkilinin və fəaliyyətinin hüquqi və iqtisadi əsaslarını müəyyən edən müvafiq mexanizmin işə düşməsinə şərait yaratdı. Qanunun məqsədi ölkədə kənd təsərrüfatı məhsulları istehsalçılarının könüllü birləşməsi əsasında iri müəssisələr yaratmaq, onların istehsal potensialından səmərəli istifadə etməklə rəqabət qabiliyyətli məhsullar istehsal etmək və məhsuldarlığı artırmaqdır. Müsahibimiz Dövlət Aqrar Ticarət Şirkətinin direktoru Leyla Məmmədovadır.



**- Leyla xanım, Dövlət Aqrar Ticarət Şirkətinin əsas fəaliyyəti nədən ibarətdir?**

- Şirkətimizin yaranması Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində nəzərdə tutulmuş kənd təsərrüfatı məhsullarının istehsal potensialının dəyər zənciri üzrə artırılması, idxalı əvəz etmək potensialı olan kənd təsərrüfatı və emal sənayesi məhsulları istehsalının təşviqi, kənd təsərrüfatı və emal sənayesi məhsulları üzrə ixracın təşviqi və dəstəklənməsi, kənd yerlərində məşğulluğun artırılması, əhalinin maarifləndirilməsi və rifahının yüksəldilməsi, kənd turizminin və ekoturizmin inkişaf etdirilməsi kimi prioritet məsələlərin həllinə dair zərurətdən irəli gəlib. Əsas məqsədimiz sosial məsuliyyət anlayışını mənimsəmiş bir qurum kimi, ölkədə kənd təsərrüfatı məhsullarının bazar infrastukturunu inkişaf etdirmək, kiçik və orta fermer təsərrüfatı sahiblərinin bazarlara çıxışını asanlaşdırmaqdır.

Bundan başqa, şirkət kiçik və orta fermer təsərrüfatı sahiblərinin yetişdirdiyi məhsulların satışını təşkil etmək üçün müvafiq işlər görür. Biz bu istiqamətdə daxili və xarici bazarda sifarişçilərlə - böyük istehsal müəssisələri, market şəbəkələri, bazarlar, restoran və digər ictimai iaşə obyektləri ilə əməkdaşlıq edirik.

> Mərkəzləşdirilmiş təsərrüfatlar yaradılarsa, aqrar sahədə istehsalın həcmini kəskin şəkildə artıra bilərik. Bu, kənd təsərrüfatında, xüsusən də kiçik və orta sahibkarlığın inkişafında ciddi əhəmiyyət kəsb edəcək

**- Fəaliyyətinizi hansı prinsiplər üzərində qurursunuz?**

- Dövlət Aqrar Ticarət Şirkətinin fəaliyyətinin əsas prinsipləri dürüstlük və şəffaflıq, sosial məsuliyyət, çeviklik, yüksək keyfiyyət və etibarlı əməkdaşlıq üzərində qurulmuşdur. Biz fermerlərlə işimizdə bu dəyərlərə üstünlük veririk. Kənd təsərrüfatı ilə məşğul olan sahibkarlardan şirkətimizə şifahi və ya yazılı müraciət daxil olur, onlar yetişdirdikləri məhsul barədə ətraflı məlumat verir və əməkdaşlarımız həmin müraciəti qeydiyyata alır. Bunun əsasında məhsula baxış keçirilərək keyfiyyəti müvafiq qayda və standartlara uyğun yoxlanılır. Sonda ən qısa zamanda məhsula müvafiq alıcı tapılır və satış həyata keçirilir.

Kiçik təsərrüfat sahiblərinin aqrar məhsullar istehsalında zəif mövqeləri, ümumiyyətlə, istehsal səviyyələrinin çox aşağı olması onların həm müvafiq resurslara olan tələbatlarının ödənilməməsi, həm də bazara çıxışla və bu sahədə mövcud olan problemlərlə əlaqədardır. Biz könüllü sürətdə birləşmək yolu ilə bütün problemlərin öhdəsindən gəlməyə, daha düzgün həll yollarını tapmağa çalışırıq. Yaradılmasını nəzərdə tutduğumuz fermer mağazaları, «yaşıl marketlər», kooperativ bazarlar, topdansatış mərkəzləri buna geniş yol açacaq.

**- Bazar iqtisadiyyatı şəraitində kəndli-fermer təsərrüfatları respublikada əhalinin ərzaq məhsullarına tələbatının yaxın gələcəkdə ödənilməsinin ən güclü ehtiyat mənbəyidir. Sifarişçilərlə əlaqə qurmaq çətin deyil ki?**

- Kooperativ təsərrüfatlar heç də kolxoz, sovxoz anlamına gəlmir. Məsələn, ABŞ-da məşğul əhalinin 3%-i aqrar sahədə çalışsa da, bu ölkə dünyada nəhəng kənd təsərrüfatı məhsulları ixracatçısı kimi tanınır. Bizdə isə məşğul əhalinin 40%-i aqrar sahədə çalışır. Mərkəzləşdirilmiş təsərrüfatlar yaradılarsa, aqrar sahədə istehsalın həcmini kəskin şəkildə artıra bilərik. Bu, kənd təsərrüfatında, xüsusən də kiçik və orta sahibkarlığın inkişafında ciddi əhəmiyyət kəsb edəcək.

Sifarişçilərlə əlaqə qurmaqda heç bir çətinliyimiz yoxdur. Fəaliyyətə başladığımız qısa müddət ərzində artıq bir neçə ixrac əməliyyatı həyata keçirmişik və daxili bazarda iri supermarketlər şəbəkələrindən biri ilə daimi əməkdaşlıq qurmuşuq. Bu sahədə işlərimizi bütün sürəti ilə davam etdiririk.

**- Layihələrinizdən biri də «Kənddən şəhərə»adlanır. Bu layihə özünü doğrulda bildimi?**

«Kənddən şəhərə» şirkətimizin həyata keçirdiyi çox önəmli layihədir. Bu layihənin bir neçə istiqamətdə həyata keçirilməsini nəzərdə tutmuşuq. «Kənddən şəhərə» mağazaları açılır. Bu yaxınlarda şəhərin mərkəzində - Nizami küçəsində açılacaq mağaza vətəndaşlarımızın istifadəsinə veriləcək. Bundan başqa, mütəmadi olaraq «Kənddən şəhərə» yarmarkalarının keçirilməsini planlaşdırırıq. İlk belə yarmarka Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi günü ərəfəsində təşkil olunacaq. Yarmarkada vətəndaşlarımız birbaşa fermerlərin özlərindən təbii və keyfiyyətli kənd təsərrüfatı məhsulları əldə edə biləcəklər. Layihənin digər istiqaməti çərçivəsində kiçik və orta fermer təsərrüfatı sahiblərinin yetişdirdiyi məhsulların vahid «Kənddən şəhərə» markası altında qablaşdırılmasını həyata keçirməkdir. Qablaşdırılmış məhsulların yerli market şəbəkələrində satışı, eyni zamanda ixrac etdirilməsi də nəzərdə tutulub. İnanırıq ki, sosial yönümlü bu layihənin həyata keçirilməsi fermerlərimizin məhsullarının satışında yeni bir mərhələ olacaq.

**- Başqa hansı yenilikləriniz, planlarınız var?**

- Çalışırıq ki, fəaliyyətimizi prioritetlər və innovasiyalar üzərində quraq. Bu səbəbdən, aqrar ticarət sahəsində bir sıra yeniliklər etməyi planlaşdırırıq. Bunlardan biri «Fermer kartı»dır. Bu yaxınlarda təqdim olunmuş «Fermer kartı» aqrar ticarətdə nağdsız ödənişləri stimullaşdıracaq, fermerlərin maliyyə resurslarına çıxışını asanlaşdıracaq və onların maliyyə savadlılığını artıracaqdır.

Bundan əlavə, «Kənddən şəhərə» yarmarkasının təşkilini innovativ qaydalarla həyata keçirəcəyik. Fermerlər şirkətin rəsmi internet səhifəsində yerləşdirilmiş müraciət formasını doldurmaqla yarmarkada iştiraklarını bildirə bilərlər. Bu zaman bölgələrdə fəaliyyət göstərən daimi işçilər, həmçinin şirkətin çağrı mərkəzinin əməkdaşları fermerlərin onlayn qeydiyyatdan keçməsi üçün zəruri olan hər cür kömək göstərəcəkdir. Yarmarka zamanı fermerlər öz məhsullarını şəhərin mərkəzində yerləşən qapalı və isti yerdə heç bir ödəniş etmədən sata biləcəklər.

*Müsahibəni hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

# Biznesin inkişafı və maliyyələşməsi yeni mərhələyə qədəm qoyur

Bakıda «Astana» Beynəlxalq Maliyyə Mərkəzinin təşkilatçılığı və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) dəstəyi ilə «Biznesin maliyyələşdirilməsi və inkişafı üçün yeni imkanlar» mövzusunda konfrans keçirilib.

Tədbirin keçirilməsi Azərbaycan biznesinin bank kreditlərinə alternativ olan xarici kapital mənbələrinə çıxış imkanlarını nəzərdən keçirmək məqsədi daşıyır. «Astana» Beynəlxalq Maliyyə Mərkəzi platforması vasitəsilə Azərbaycan şirkətləri beynəlxalq investorların investisiyalarını cəlb edə biləcəklər. ABMM birjasında qiymətli kağızlarını yerləşdirmək bəlli və rahat şərtlərlə inkişafları üçün investisiya cəlb etmək niyyətində olan iqtisadiyyatın real sektorundakı Azərbaycan şirkətlərinin maraqlarına uyğundur. Bundan başqa, Azərbaycan maliyyə bazarının iştirakçıları-brokerlər və treyderlər, böyük Azərbaycan şirkətlərinin vəsaitlərini idarə edənlər ABMM iştirakçısı olacaqlar.

ASK-nın prezidenti Məmməd Musayev son illər ölkədə aparılan genişmiqyaslı iqtisadi islahatlardan danışaraq bildirib ki, qloballaşan dünyada Azərbaycan iqtisadiyyatının dünya iqtisadi sisteminin tərkib hissəsinə çevrilməsi, kapital bazarlarının inkişaf etdirilməsi, real sektorun qiymətli kağızlar bazarı vasitəsilə maliyyələşmə təşəbbüslərinin dəstəklənməsi, sərbəst vəsaitlərin iqtisadiyyatın real sektoruna cəlb edilməsi üçün müəyyən addımların atılması zəruridir. Bu istiqamətdə kapital bazarları vasitəsilə maliyyələşmənin təşviq edilməsi, qiymətli kağızlar bazarına çıxış imkanlarının genişləndirilməsi, xarici investorların yerli bazarlara cəlb edilməsi, həmçinin bu sahədə şəffaflığın artırılması böyük əhəmiyyət daşıyır: «Kapital bazarları vasitəsilə maliyyələşmənin əsas tələblərindən biri də maliyyə hesabatlılığının, şəffaflığın və məlumatların vaxtında açıqlanmasını təmin etməkdir. İnvestorlar şirkətin səhmini almaqla bağlı qərar verməzdən əvvəl lazımi informasiya toplamalı və bundan sonra yekun qərar qəbul etməlidirlər. Qiymətli kağız buraxmış şirkət mütləq hesabatlarını, qanunvericiliklə müəyyən edilmiş bir sıra məlumatları açıqlamaq məcburiyyəti qarşısında qalır. Bu da ondan ibarətdir ki, şəffaflıq təmin olunsun, şirkət barədə investorlar ətraflı məlumat ala bilsinlər».

> Kapital bazarları vasitəsilə maliyyələşmənin əsas tələblərindən biri də maliyyə hesabatlılığının, şəffaflığın və məlumatların vaxtında açıqlanmasını təmin etməkdir

Tədbirdə çıxış edən Qazaxıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Beybit İsabayev «Astana» Beynəlxalq Maliyyə Mərkəzi haqqında məlumat verib: «Mərkəz Qazaxıstanın Prezidenti Nursultan Nazarbayevin təşəbbüsü ilə yaradılıb və bütün Avrasiya regionunun maliyyə mərkəzinə çevrilməyi qarşısına məqsəd qoyub. Astanada yerləşən maliyyə mərkəzinin fəaliyyətinin əsas istiqamətlərinə kapital bazarlarının inkişafı, aktivlərin idarə edilməsi, islam maliyyəçiliyi sektorunun təbliği, fərdi şəxslərin vəsaitlərinin idarə olunması, yeni maliyyə texnologiyaları, həmçinin «yaşıl» maliyyələşmə daxildir. Burada ədalət mühakiməsi müstəqil hakimlər və arbitraj tərəfindən həyata keçirilir. 2066-cı ilədək korporativ və gəlir vergisindən azad olunmuş mərkəzin iştirakçıları arasında müxtəlif ölkələrdən 88 şirkət fəaliyyət göstərir».

«Astana» Beynəlxalq Maliyyə Mərkəzinin İdarə Heyətinin sədri Aydar Kazıbayev çıxışında bildirib ki, xarici kapitalın cəlb olunması üçün istifadə olunan əsas alətlərdən biri mərkəzin birjasında qiymətli kağızların yerləşdirilməsidir: «Son iki ay ərzində mərkəzin ekspertləri Rusiya şirkətləri üçün Moskva, Kazan və Krasnodar şəhərlərində, həmçinin Belarus şirkətləri üçün Minskdə təqdimatlarla çıxış edib, Şanxay şəhərinin Fond Birjasında Çinin biznes ictimaiyyətinin nümayəndələri ilə görüşlər keçirilib».

Azərbaycan Banklar Assosiasiyasının icraçı direktoru Yunus Abdulov isə çıxışında bank sisteminin əhəmiyyəti və biznesin maliyyələşdirilməsində mövcud vəziyyətə toxunub: «Maliyyə sisteminin fond bazarları və bankların sintezindən təşkil olunduğu böyük iqtisadiyyatlardan fərqli olaraq, kiçik ölçülü iqtisadiyyatlarda biznesin maliyyələşdirilməsində bankların vasitəçilik funksiyası iqtisadiyyat üçün həyati önəm daşıyır. Banklar bu funksiyanı nə qədər yaxşı yerinə yetirərsə, qənaətin investisiyalara çevrilməsi bir o qədər sürətli, az xərcli, aşağı riskli və effektivli olar. Təbii ki, sadalanan bu meyarların hər biri üzrə optimal nəticə əldə etmək yalnız banklardan asılı deyil, daha çox iqtisadiyyatın öz xüsusiyyətləri ilə bağlıdır». Qeyd olunub ki, hazırda bank sektorunda 5,8 milyard manatdan artıq likvid vəsait toplansa da, kreditləşmə kanallarının işləkliyi ilə bağlı mövcud problemlər həmin vəsaitin iqtisadiyyata ötürülməsini ləngidir.

Tədbirin gedişində biznesin maliyyələşdirilməsində əsas çağırışlar, biznes subyektlərinin institusionallaşması, maliyyə və iqtisadi savadlılığın, eləcə də idarəetmə bacarıqlarının artırılması məsələləri istiqamətində müzakirələr aparılıb.

**Fəxriyyə İKRAMQIZI**

## BİR CÜMLƏ - BİR XƏBƏR

«Bakutel-2018» XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisi çərçivəsində Azərbaycan, İran, Rusiya və Türkiyə arasında nazirlər səviyyəsində İKT sahəsində regional əməkdaşlıq barədə dördtərəfli görüş keçirilib.

Azərbaycan, Rusiya, Türkiyə və İran informasiya və kommunikasiya texnologiyaları sənayesinin inkişafı üçün konsorsium yaratmaq barədə razılığa gəlib.

SOCAR-ın məlumatına əsasən, bu vaxtadək Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri ilə 373,8 milyon ton neft nəql olunub.

Türkmənistan Xarici İşlər Nazirliyinin rəsmi saytı xəbər verir ki,Türkmənistan və Rumıniya Qara dəniz–Xəzər dənizi tranzit nəqliyyat dəhlizinin yaradılmasına xüsusi maraq göstərirlər.

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |
| Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Blokçeyn texnologiyaları iqtisadi proseslərə daxil olur

2019-cu ildə «Rəqəmsal hökumət» quruculuğu istiqamətində nəzərdə tutulan əsas layihələrdən biri müasir maliyyə texnologiyalarının tətbiqinin genişləndirilməsidir. Bu istiqamətdə qarşıya qoyulmuş prioritetlərdən biri də blokçeyn platformasının yaradılmasıdır.

Mərkəzi Bankın əməkdaşı Fərid Osmanov bildirib ki, blokçeyn texnologiyalarının inkişaf etdirilməsi ilə bağlı tədbirlər görülür və qanunvericilikdə bir sıra məsələlərin öz əksini tapması nəzərdə tutulub. Azərbaycanda qabaqcıl informasiya, nano, maliyyə və kommunikasiya texnologiyalarının tətbiqi daim genişlənir. Artıq bu istiqamətdə dövlət-özəl əməkdaşlığının bariz nümunəsi kimi yaradılmış Rəqəmsal Ticarət Qovşağı blokçeyn texnologiyalarının tətbiqinə fürsət yaradır. Hazırda bu qovşağın ən mühüm tərkib hissəsi sayılan Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının fəaliyyət prosesində blokçeyn texnologiyasının tətbiqi planlaşdırılır.

cağı üçün indidən hazırlıqlar görülməlidir. Blokçeyn texnologiyaları səhiyyə, mülkiyyət hüquqlarının müdafiəsi, istehlak, pul köçürmələri və big data kimi sahələrdə daha böyük fayda gətirəcək.

Azərbaycan Sinqapur, Avstraliya, Hindistan, İrlandiya və digər ölkələrin banklararası əməliyyatların blokçeyn üzərindən aparılması istiqamətində həyata keçirdiyi layihələrin tətbiqini nəzərdən keçirir. Həmin ölkələrin atdığı addımlar göstərir ki, yaxın gələcəkdə bütün banklararası əməliyyatlar daha sürətli, effektiv, təhlükəsiz və ucuz şəkildə blokçeyn platforması üzərindən aparılacaq. «Cryto Consulting» şirkətinin rəhbəri Elnur Quliyev bildirib ki, blokçeynlər hazırda dünyada rəqəmsal ticarətin ən mühüm layihələrindən birinə çevrilib. Dünyanın bir çox nüfuzlu bankları və maliyyə təşkilatları rəqəmsal valyutaların ən təhlükəsiz və effektli aləti kimi blokçeyn texnologiyasının tətbiqinə geniş yer verib. Avropa

tətbiqi ətraf mühitə mənfi təsirlərin azaldılmasına şərait yaradır. Media sahəsində də blokçeynin tətbiqi nəticəsində hər bir jurnalistin yazdığı məqaləyə görə oxuma trafikinə əsasən hansısa miqdarda pul vəsaiti daxil olacaq ki, bunun sayəsində ən çox oxunan məqalə müəllifləri daha çox qazanacaqlar. Blokçeynin tətbiqi notarius xidmətinə də öz təsirini göstərə bilər. Daha doğrusu, bu texnologioyanın inkişafı bəzi sahələrdə notarisua ehtiyacı aradan qaldırır. Bütün məlumatlar verilənlər bazasında olduqdan sonra hər hansı sənədi notariusun yenidən təsdiq etməyinə ehtiyac qalmır ki, bununla da pula qənaət edilmiş olur.

Blokçeyn vergi sistemində də yeni yanaşmaların ortaya çıxmasına şərait yaradır. Vergi inzibatçılığında qlobal meyillər və rəqəmsal transformasiyalar, vergi ödəyiciləri ilə münasibətlərin qurulmasında müasir texnologiyalardan istifadə edilməsi, blokçeyn və onun mövcud potensialı, Vergilər Nazirliyinin rəqəm-




Blokçeyn texnologiyalarının tətbiqi bütün dünyada olduğu kimi Azərbaycanda da diqqətlə öyrənilir, risklər və imkanlar qiymətləndirilir. Azərbaycanın maliyyə-bank sektorunun keyfiyyətcə yeni mərhələyə qədəm qoyması, maliyyə xidmətlərinin keyfiyyətinin yaxşılaşması, maliyyə resurslarına əlçatanlığın genişləndirilməsi və qlobal miqyasda rəqabətədavamlılığın təmin olunması blokçeyn texnologiyalarının səmərəli tətbiqindən də asılı olacaq.

Hazırda «Azexport»da blokçeyn texnologiyalarının tətbiqi istiqamətində araşdırmalar aparılır. Bu sahədə digər innovativ imkanların daha geniş araşdırılmasına ehtiyac var. Gələcəkdə blokçeyn texnologiylarının irəliləməsi banklar, depozitarlar və notariuslar üçün yeni reallıqlar yaradabankları blokçeynin tətbiqinin yeni imkanlar yaratmaqla bərabər, vaxta və xərclərə qənaət olunduğunu, pulköçürmə əməliyyatlarında riskləri minumuma endirildiyini nəzərə alaraq bu texnologiyanın qeyri-maliyyə sektorlarında da tətbiqini araşdırır.

Ekspert hesab edir ki, blokçeyn vasitəsilə ticarət sektoru daha da canlanacaq. Ticarətin blokçeyn üzərində qurulması üçüncü tərəfləri ortadan qaldırmaqla ticarəti sadələşdirə, kriptoqrafik kontraktlardan istifadə edərək ixrac və idxalı daha təhlükəsiz edə, əməliyyatların müddətini qısalda və xərcləri azalda bilər. Blokçeynlər ekoloji mühitin təmiz saxlanmasına da öz töhfəsini verəcək. Təbii resursların çıxarılması, emalı və daşınmasında blokçeyn texnologiyasının

sal transformasiya istiqamətində fəaliyyəti və s. kimi məsələlər bu gün aktuallığı ilə seçilir. Vergilər Nazirliyinin Vergi Siyasəti Departamentinin direktor müavini Şamil Ərəbov qeyd edib ki, bir çox ölkələrin elektron idarəetmə təcrübəsində istifadə edilən blokçeyn texnologiyalarının hazırda rəqəmsal iqtisadiyyatda rolu artır. Həmin sahənin vergiyə cəlb edilməsi əsas məsələlərdən biri olduğundan bununla əlaqədar Vergi Məcəlləsinə elektron ticarətin vergiyə cəlb edilməsi ilə bağlı müddəalar daxil edilib. Blokçeyn üzrə əməliyyatların aparılması zamanı hüquqi şəxslər üçün mənfəət, fiziki şəxslər üçün isə gəlir vergisinin tutulması planlaşdırılır.

**E.CƏFƏRLİ**

# Vergi və rüsumların onlayn ödənişinə maraq artır

Vergi və rüsumların elektron qaydada ödənilməsi vergi sahəsində aparılan islahatların mühüm istiqamətlərindən birini təşkil edir. 2018-ci ilin 10 ayı ərzində dövlət büdcəsinə 190,8 milyon manat vəsait elektron qaydada ödənilib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 faizə yaxın artım deməkdir. Bu sahədə müsbət dinamikanı təmin edən başlıca amil isə son zamanlar vergi, rüsum, cərimə, icarə haqqı və digər büdcə ödənişlərinin ölkəni əhatə edən geniş ödəmə infrastrukturları vasitəsilə toplanılması məqsədilə həyata keçirilən təşviqedici siyasətdir.

Vergilərin elektron qaydada ödənişi beynəlxalq təşkilatların hesabatlarında respublikamızın mövqeyinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına təsir göstərib. Dünya Bankının «Doing Business 2019» hesabatında ən mühüm indikatorlardan biri olan «Vergilərin ödənilməsi» («Paying Taxes») üzrə Azərbaycanın göstəricilərinin yaxşılaşması bunu təsdiqləyir. Hesabat hazırlanarkən dövlət büdcəsinə vergilərin ödənilməsi və bəyannamələrin təqdim edilməsi sahəsində vergi sistemində tətbiq olunan yeniliklər, sosial müdafiə ayırmaları üzrə hesabatların və ödənişlərin elektron formada aparılması və digər sahələrdə əldə edilmiş nailiyyətlər nəzərə alınıb.

Ölkəmizdə elektron vergi ödənişlərinin tətbiqinə 2008-ci ilin yanvar ayının 1-dən başlanıb. İlkin mərhələdə ƏDV ödəyiciləri ƏDV depozit hesabı vasitəsilə həm ƏDV, həm də digər tədiyyələr üzrə ödənişləri dövlət büdcəsinə tranzaksiya edə bilirdilər. 2012-ci ilin aprel ayından «Vergi və rüsumların internet vasitəsilə ödənilməsi» xidməti istifadəyə verildikdən sonra bütün tədiyyələr üzrə dövlət büdcəsinə edilən ödənişlərin elektron qaydada həyata keçirilməsi təmin olunub. Bu prosesin başlandığı dövrdən növbəti illər üzrə elektron qaydada ödəmələrin dinamikasında hər il artım olub. «Elektron hökumət» infrastrukturunun genişlənməsi, müasir ödəniş mexanizmlərindən istifadə edilməsi, bu prosesə ödəniş şirkətlərinin cəlb olunması da onlayn ödəmələrin həcminin artmasına müsbət təsir göstərib.

Hazırda vergi və rüsumların internet vasitəsilə ödənilməsi üçün elektron ödəniş sistemləri genişləndirilməkdədir. Bu günlərdə dövlət başçısının iştirakı ilə istifadəyə verilən Elektron Hökumətin İnkişafı Mərkəzi «ASAN xidmət»in mobil versiyası da vergi ödənişlərinin onlayn şəkildə asan və rahat həyata keçirilməsini təmin edir.

Elektron ödənişin tətbiqi vergi inzibatçılığının təkmilləşdirilməsinə və çevik nəzarət sisteminin yaradılmasına da müsbət təsirini göstərir.

**ELBRUS**

# Azərbaycanda klasterlərin yaradılması tarixi zərurətdir

Dünya ölkələrinin əksəriyyətində iqtisadi cəhətdən çox əhəmiyyətli mövqeyə malik olan klaster modeli XX əsrin 60-70-ci illərindən tətbiq edilir. Azərabaycan Respublikasının «Sənayenin inkişafına dair 2015-2020-ci illər Dövlət Proqramı»nda sənaye klasterlərinin yaradılması və regional inkişaf hökumətin qarşısında duran vəzifələrdən biri kimi müəyyən edilir. Strateji yol xəritələrində də klasterlərin inkişafına geniş yer verilir.

İqtisadçı ekspert Fikrət Yusifovun sözlərinə görə, müxtəlif proqram, strategiya və konsepsiyalarda klaster mexanizminin tətbiqi ilə bağlı yanaşmalar yer alsa da, ərazi klasterlərinin inkişafına dair dəqiq işlənmiş və aydın hədəfləri olan strategiya olmalıdır: «Dünyanın inkişaf etmiş ölkələrinin geniş şəkildə istifadə etdikləri bu fəaliyyət meydanı-klasterlər eyni və ya bənzər sektorda fəaliyyət göstərən, əlaqəli və bir-birini tamamlayan fəaliyyət sahələrinin müəyyən bölgədə yerləşməsi ilə yaradılan, ümumi infrastruktur, texnologiya, vahid bazar, işçi qüvvəsi və xidmətləri paylaşaraq qarşılıqlı ticarət əlaqələrinin qurulması, kommunikasiya və dialoq imkanlarına malik sahibkarlıq subyektlərindən ibarət olan bir sistemdir. Bu baxımdan, sənaye klasterlərinin yaradılması ölkə iqtisadiyyatının real sektoruna böyük töhfə ola bilər».

İqtisadçı ekspert Rövşən Ağayevin sözlərinə görə, xüsusilə regionların klasterlər əsasında inkişafı ilə bağlı strategiyanın hazırlanması, bu məqsədlə sektorial və regional inkişaf siyasətlərinin uzlaşdırılması və əlaqələndirilməsi bölgələrin inkişafının orta və uzunmüddətli hədəflərinin, həmçinin prioritetlərinin dəqiq müəyyən edilməsində həlledici alət ola bilər. Klaster hədəfi kimi seçilən regionun iqtisadi əhəmiyyətini dəyərləndirmək kompleks göstəricilər sistemini müəyyən edə bilər: «Bu göstəricilərə məşğulluq, əlavə dəyərin səviyyəsi, regionun texnoloji artım, innovasiya və yeni məhsul yaratma, yeni texnologiyalara uyğunlaşma potensialı kimi mühüm indikatorlar daxil ola bilər. KOS-ların, xüsusilə startapların həvəsləndirilməsi və dəstəklənməsi xüsusilə mühümdür. İlk növbədə KOS-ları dəstəkləyəcək investisiya və vençur fondlarının təşkili və inkişafı üçün institusional mühit yaradılmalı, regionların rəqabət qabiliyyətliliyini dəyərləndirməyə imkan verən kəmiyyət və keyfiyyət metodları əsasında bölgələrin klaster potensialının analizi aparılmalıdır».

**FƏXRİYYƏ**

## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin **«195-1»** Çağrı Mərkəzinə, **ww.taxes.gov.az** və **www.asxm.gov.az** internet ünvanına müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## 2018-ci ilin dekabr ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli vergilər barədə

## YADDAŞ

**2018-ci ilin noyabr ayına görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsi,
- Aksiz bəyannaməsi,
- Yol vergisi bəyannaməsi,
- Mədən vergisi bəyannaməsi,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi

**cari ilin dekabr ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim edilməli və təqdim olunmuş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Daşınmaz əmlakın** təqdim edilməsi üzrə sadləşdirilmiş verginin bəyannaməsi **cari ilin dekabr ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).
- **Muzdlu işlə əlaqədar** 2018-ci ilin noyabr ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi **cari ilin dekabr ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir *(ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri bəyannaməni illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri 2018-ci ilin 4-cü rübü üzrə bəyannaməni növbəti ildə yanvar ayının 21-dən gec olmayaraq təqdim etməlidirlər)*.
- **Xüsusi notariusların** 2018-ci ilin noyabr ayı üzrə hesabladıqları gəlir vergisi **cari ilin dekabr ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir *(2018-ci ilin 4-cü rübü üzrə bəyannamə növbəti ildə yanvar ayının 21-dən gec olmayaraq təqdim edilməlidir)*.

**Qeyd:**
20.01.2019-cu il tarixi qeyri-iş gününə təsadüf etdiyindən, həmin tarixdə təqdim edilməli bəyannamələrin təqdim olunmasının son müddəti 21.01.2019-cu il tarixə keçirilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## Elektron qaimə-fakturanın tətbiqi barədə

## BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

## Vergi amnistiyası elan ediləcək

Qazaxıstan Qanunvericiliyinə düzəlişlərə əsasən, kiçik və orta biznes subyektləri bu il oktyabrın 1-dək olan vergi cərimələrinin və onlara əlavə edilmiş penya faizlərinin ləğv ediləcəyi nəzərdə tutulur: bir şərtlə ki, onlar 2018-ci ilin sonuncu gününə qədər əsas vergi borclarını tam ödəmiş olsunlar. İlkin hesablamalara görə, vergi amnistiyası 90 mindən artıq təsərrüfat subyektini əhatə edəcək.

Qazaxıstan Dövlət Gəlirləri Komitəsinin açıqlamasında bildirilmişdir ki, bu addımın atılması Prezident Nursultan Nazarbayevin oktyabrın 5-də xalqa müraciətində irəli sürdüyü təşəbbüsdən irəli gəlir və öz biznesinə yenidən başlamaq istəyən kiçik və orta sahibkarlara işgüzar fəaliyyətlərini bərpa etməyə şərait yaratmaq məqsədi daşıyır.

Vergi amnistiyası:
- iri vergi ödəyicilərinə;
- yerin təkindən istifadə edənlərə (yeraltı su və müalicəvi palçıq çıxarmaq hüququ olanlar istisna olunmaqla);
- aksizli məhsul istehsal edənlərə;
- sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan fiziki şəxslərə tətbiq olunmayacaq.

Qazaxıstan Dövlət Gəlirləri Komitəsinin açıqlamasında bildirilmişdir ki, yuxarıdakı meyarlara uyğun olaraq vergi amnistiyasından faydalanmaq hüququ qazanan 90.077 orta və kiçik biznes subyektinin (31.210 hüquqi şəxs və 58.867 fərdi sahibkar) dövlətə 340,6 milyard tenge (1 tenge=0,00454 manat) vergi borcu var. Ləğv edilməsi nəzərdə tutulan cərimə faizlərinin məbləği 122,9 milyard tenge, cərimələrin məbləği isə 7,3 milyard tenge təşkil edir. Dekabrın 31-dək 210,4 milyard tenge məbləğində əsas vergi borcunun tam ödəniləcəyi halda, bu məbləğ silinəcək.

## Almaniya əmlak vergisinə aid şərtləri təkmilləşdirəcək

Almaniya Maliyyə Nazirliyinin mövcud əmlak vergisi qanunu ilə bağlı dəyişikliklər etməyə hazırlaşdığı barədə xəbərlər yayılmışdır. Yeni təkmilləşdirməyə görə, əmlak vergisi əmlakı icarəyə götürən tərəfin üzərinə yüklənəcək. Maliyyə naziri Olaf Şoltz əhalidə yarana biləcək təşvişin aradan qaldırılması məqsədilə açıqlama verərək, nəzərdə tutulmuş dəyişikliklərdə vergi artımına yol verilməyəcəyini bildirmişdir. Onun sözlərinə görə, bələdiyyələrin hər il topladıqları 14 milyard avro əmlak vergisi üçün zəmanət verməsi zəruridir. Mütəxəssislər isə yeni qanunun şəhərlərdə kirayə haqlarının artmasına və yaşayışın bahalaşmasına yol açacağını bildirirlər.

Almaniyada əmlak vergisi ilə bağlı 1935-ci ildən qüvvədə olan qanuna əsasən, əmlakın hər kvadratmetri üçün 19 sent vergi tutulur. Bu şərtə əsasən, 100 kvadratmetrlik bir ev üçün cəmi 19 avro vergi ödəmək lazım gəlir. Bələdiyyələrin hazırda ən böyük yığım mənbəyi torpaq vergisidir. Onlar hər il 400 milyon avro məbləğində əkin sahələri və meşə vergisi, 13,5 milyard avro məbləğində torpaq və daşınmaz əmlak vergisi toplayırlar.

## Miras qalan evlər təhvil verilə bilər

Yaponiyada əhalinin sayının ildən-ilə azalması ölkə vətəndaşlarını yeni bir problemlə üz-üzə qoymuşdur: heç də hamı ata-babadan qalmış mirasa yiyə durub, əmlak vergisini ödəmək istəmir. 100 yaşdan yuxarı insanların sayına görə dünyada öndə olan bu Asiya ölkəsində həyatdan köçən insanların evlərinə sahiblik etmək istəyənlərin sayı getdikcə azalır. Miras qalan evlərə ehtiyacı olmayan varislər vergi ödəmək və evlərə qulluq etmək məsuliyyətini öz üzərlərinə götürmək istəmirlər. Ona görə də miras qalan əmlakın qanuni sahibləri məsələnin həllini həmin evlərin ehtiyacı olanlara pulsuz təhvil verilməsində görürlər.

Səlahiyyətli orqanlar ölkənin müxtəlif şəhərlərindən verilən bu cür elanlara turistlərin maraq göstərdiklərini bildirirlər. Bəzi evlərin elanı isə ev sahiblərinin varisi olmadığına görə yerli idarəetmə qurumları tərəfindən verilir. İndi Yaponiyada son dərəcə ucuz ev almaq mümkündür.

## İtaliyaya 100 milyon avro ödəniləcək

İtaliyanın maliyyə polisi «Facebook» şirkətini 2010-2016-cı illər arasında reklam gəlirlərindən əldə etdiyi gəlirlərlə ödədiyi vergi arasında böyük uyğunsuzluq olduğuna görə ittiham etmiş, şirkətin 300 milyon avro məbləğində vəsaiti vergidən yayındırdığını açıqlamışdı. «Facebook» rəhbərliyinin İtaliyanın səlahiyyətli orqanları ilə apardığı danışıqlar nəticəsində əldə olunmuş razılaşmaya əsasən, şirkət İtaliya büdcəsinə 100 milyon avro ödəyəcək. Qeyd edək ki, 2017-ci ilin dekabr ayında «Facebook» fəaliyyət göstərdiyi ölkədə vergi ödəyəcəyi sistemi qəbul etdiyini bildirmişdi. İtaliya hökuməti «Amazon», «Google» və «Apple» şirkətləri ilə də buna oxşar sazişlər imzalamışdır. «Apple» şirkəti 2008-ci ildən 2015-ci ilə qədər əldə etdiyi qazancın qarşılığı olaraq İtaliya büdcəsinə 300 milyon avrodan artıq vəsait köçürmüşdü.

## Ekvador və Yaponiya saziş bağlayıb

Yaponiya hökuməti yeni vergi sazişinin əsas müddəalarını Ekvador hökuməti ilə razılaşdırdığı barədə açıqlama vermişdir. Sazişdə hər iki ölkənin vergi hüquqları təsbit edilir və ikiqat vergitutmanın aradan qaldırılmasına dair şərtlər müəyyənləşdirilir.

Sazişin ən yaxın vaxtlarda imzalanacağı gözlənilir, sənəd qüvvəyə minənə qədər isə daxili prosedurların təfərrüatları işlənilib başa çatdırılmalıdır.




## Bir futbolçu iki transmilli şirkətdən çox vergi ödəyəcək

Son zamanların sensasiyalı kriminal xəbərlərində məşhurların, xüsusilə də futbolçuların vergi orqanları ilə məhkəmə çəkişmələrinə daha çox yer verilir. İngiltərənin «Çelsi» futbol komandasının oyunçusu Nqolo Konte isə sözün həqiqi mənasında dünya üçün müsbət örnək göstərməyi bacarmışdır. «Çelsi» ilə imzaladığı 5 illik müqaviləyə əsasən, onun dövlət büdcəsinə ödəyəcəyi verginin məbləği «Amazon» və «Starbucks» kimi transmilli şirkətlərdən çox olacaq.

«The Sun» qəzetində nəşr edilmiş xəbərə əsasən, Fransa vətəndaşı olan yarımmüdafiəçi hər həftə 290 min funt sterlinq (1 funt sterlinq=2,17 manat) pul qazanacaq və onun illik qazancı 15 milyon funt sterlinqdən artıq olacaq. İngiltərənin vergi qanunvericiliyinə əsasən, 27 yaşlı Konte yeni maaşına uyğun olaraq, hər il 6,7 milyon funt sterlinq vergi ödəməli olacaq. Xəbərdə qeyd edilmişdir ki, beynəlxalq miqyasda biznes fəaliyyəti ilə məşğul olan «Amazon» və «Starbucks» şirkətlərinin ikisinin birlikdə ödədiyi verginin ümumi məbləği (müvafiq olaraq 1,7 və 4,5 milyon funt sterlinq) bir futbolçunun ödədiyi vergidən azdır. Şirkətlərin ikisinin vergi borcu üst-üstə 6,2 milyon funt sterlinq edir.

Qeyd edək ki, Nqolo Konte beş il bundan əvvəl Fransanın üçüncü liqasında yarışan komandalardan birinin heyətində oynayırdı. Oradan əvvəlcə 4,5 milyon avro qarşılığında «Lester Siti» komandasına transfer edilmiş, komandası 2015-2016-cı il çempionatında İngiltərə çempionu olmuşdur. 2016-cı ildə 20 milyon avroya «Çelsi» klubuna transfer edilən Nqolo Konte 2018-ci il dünya çempionatında Fransa yığma komandasının heyətində dünya birincisi olmuşdur.

## OECD transsərhəd vergi mübahisələrinin həllinə dair rəyləri öyrənir

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) Braziliyada, Bolqarıstanda, Çində, Honkonqda, İndoneziyada, Papua-Yeni Qvineyada, Rusiyada və Səudiyyə Ərəbistanında sərhədlərarası mübahisələrin həllinə dair prosedurlarla bağlı məlumatların toplanması üçün rəy və təkliflərin göndərilməsi barədə müraciət etmişdir.

Anketdə toplanılan məlumatlar «Çoxtərəfli BEPS konvensiyası»nın təsdiqlənməsi məqsədilə hesabatların hazırlanması üçün ölkələrin təcrübələri üzrə ekspert qiymətləndirməsinin aparılmasına yardım edəcək.

«Hərtərəfli çərçivə sənədinin əsası» 2015-ci ildə imzalanmış BEPS sazişləri ilə müəyyənləşdirilmiş minimal standartlara əməl etməyə razılıq vermiş 123 ölkədən ibarət koalisiyaya təqdim edilmişdir. Bu sənəddə vergi mübahisələrinin həllinin təkmilləşdirilməsi ilə bağlı müddəalar da əhatə olunmuşdur. Rəy və təkliflərin göndərilməsi dekabrın 13-dək davam edəcək.

## «General Motors» səkkiz zavodunu bağlayacaq

Dünya avtomobil istehsalı sənayesinin nəhəngi, ABŞ-ın «General Motors» korporasiyası Şimali Amerikada fəaliyyət göstərən beş zavodunu bağlayacağını və 14 min işçini azad edəcəyini bəyan etmişdir. Bundan əlavə, gələn ilin sonuna qədər Şimali Amerikadan kənarda daha üç zavodun da işinə xitam veriləcəyi bildirilmişdir. Bu qərar istehsal xərclərinin artması, avtomobil bazarındakı satışın səngiməsi və şirkətin elektriklə işləyən, eləcə də sürücüsüz idarə olunan avtomobillərə üstünlük verəcəyi ilə əsaslandırılmışdır.

ABŞ Prezidenti Donald Tramp korporasiyanın qərarını tənqid etmişdir. Analitiklər isə şirkətin bu addımı atmasının başlıca səbəblərindən biri kimi ölkə rəhbərliyinin avtomobil sənayesində xammal olaraq işlədilən poladın idxalına əlavə vergi qoymasını göstərirlər. Bu, istehsal xərclərinin artmasına şərait yaradır. «General Motors» korporasiyası dünyada populyar olan «Buick LaCross», «Chevrolet Impala», «Cadillac CT6 and XTS» və «Chevrolet Volt» «Silverado» və «Sierra» modellərinin istehsalını dayandıracaq.



krossvord

**Yuxarıdan aşağı:** 1.Çox vaxt rəsmlərdə (natürmortlarda) təsvir olunan yağ və şərab saxlamaq üçün iki şaquli qulplu yumurta formalı qab; 2.Almaniyanın şərqində şəhər; 3.Rusiyanın Tümen vilayətindən keçən çay; 4.Urologiya üzrə həkim; 5.Çar Rusiyasında qapalı orta hərbi məktəb müdavimi. 6.Yaponiyada şəhər; 9.«Bir dünya markası» devizi ilə tanınan ev məişət texnikası brendi; 13.«Bakılı oğlanlar» komandasının mərhum kapitanının adı; 15.Sükanı və əyləci olan metal kirşə ilə dağdan sürətlə sürüşmə idman növü; 16.Fransız rəssamı, postimpressionizm cərəyanının yaradıcısı və görkəmli nümayəndəsi; 17.Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinə aid olan gəmilərdən biri; 18.Pendir növü; 20.Rəsmən müəyyən edilmiş ödəniş, vergi, rüsum; 21.İsrailin pul vahidi. **Soldan sağa:** 1.Rəqs edən cismin tarazlıq vəziyyətindən uzaqlaşdığı nöqtələr arasındakı məsafə; 5.Gizli ədavət hissi; 7.Fotoeffekt prinsipi əsasında işləyən yarımkeçirici; 8.Türk və altay mifologiyasında və xalq mədəniyyətində əhd etmək və ya nəzir demək; 10.Fransız heykəltəraşı, məşhur «Mütəfəkkir» heykəlinin müəllifi; 11.Musiqi termini. Əsas tona xüsusi çalar, tembr verən əlavə ton; 12.Türkiyə müğənnisi, aktyor və bəstəkar; 14.İnsanın könüllü surətdə, məcbur edilmədən məşğul olduğu və böyük zövq aldığı fəaliyyət; 19.Kütlə qarşısında çıxış edən artistlər üçün quraşdırılan açıq səhnə; 21.Türk və altay dastanlarında adı çəkilən əfsanəvi at. Alpamış xanın atı; 22.Hindistanın şimalında, Uttar-Pradeş ştatında şəhər; 23.Kosmetik maddə kimi işlədilən ətirli, spirtli məhlul. Adı «Eau de Cologne» sözündən əmələ gəlib və «Köln şəhərinin suyu» deməkdir; 24.Xeyir, fayda, mənfəət; 25.Üçsimli rus xalq musiqi aləti.



*Məşhur fransız rəssamı, postimpressionizm cərəyanının yaradıcısının natürmortu*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Kaktus; 2.Nirvana; 3.Tuğra; 4.Urumçi; 5.Toronto; 6.Radar; 7.Qarğış; 13.Qrız; 15.Qolovno; 16.Adaqan; 17.Bılina; 18.Hesiod; 20.Məlik; 21.Müdri. **Soldan sağa:** 1.Konstruktor; 8.Koroğlu; 9.Rudar; 10.Urada; 11.Çinarlı; 12.Vanqa; 14.Volqa; 19.Damcılı; 21.Melle; 22.Qala; 23.Firdovsi; 24.Nik; 25.Klavikord.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:**
Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:**
Anar Əliyev
anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:**
Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:**
AZ 1141, Bakı ş.,
Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:**
012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# Beynəlxalq turnirdə birinci yer




Azərbaycan badmintonçuları Edi Reski Dviçayo və Ezmi Qovimuramadhoni Zambiyanın paytaxtı Lusakada keçirilmiş «Zambia International 2018» turnirində uğurla çıxış ediblər.

İdmançılarımızdan Edi Reski Dviçayo onaltıdabir finalda Kalonde Şarlesə 2:0 (21:11, 21:7) hesabı ilə qalib gəlib. E.Dviçayo bunun ardınca uqandalı Fred Kirabo üzərində 2:0 (21:10, 21:8) hesablı qələbə qazanıb.

Dörddəbir finalda Nigeriya badmintonçusu Qodvin Olofuanı 2:0 (21:3, 21:15) hesabı ilə məğlub edən Edi yarımfinala yüksəlib. Təmsilçimiz yarımfinalda Lüksemburq təmsilçisi Robert Mannı hər iki setdə məğlub edib - 2:0 (21:10, 21:12). Həlledici görüşdə nigeriyalı Anuoluvapo Juvon Opeyor üzərində 2:0 (21:11, 22:20) hesablı qalibiyyət əldə edən idmançımız, kişilərin şəxsi yarışında «Zambia International 2018» turnirinin qalibi adını qazanıb.

Digər badmintonçumuz Ezmi Qovimuramadhoni də dörddəbir finaladək rəqiblərinə set vermədən irəliləyib. E.Qovimuramadhoni 1/16 finalda Botsvana, ardınca Zambiya təmsilçilərindən üstün olub - 2:0. O, dörddəbir finalda İordaniya badmintonçusu Bahaedin Əhməd Əlşannikə 1:2 hesabı ilə uduzub.

Kişilərin qoşa yarışında da turnirin qalibi adını Azərbaycanı təmsil edən badmintonçular qazanıblar. Mübarizəyə səkkizdəbir finaldan qoşulan Edi - Ezmi tandemi bu mərhələdə zambiyalı Dalitso Banda - Rodrik Mulenqa Mvansa cütünə 2:0 hesabı ilə qalib gəlib. Badmintonçularımız uğurlu çıxışlarının davamını Zambiya idmançıları Çepus Banda - Endryu Mumba ilə görüşdə də davam etdiriblər - 2:0. Yarımfinalda zambiyalı Nqosa Çonqo - Çizva Nakanda tandemini 2:0 hesabı ilə məğlub edən Edi və Ezmi finalda nigeriyalı Qodvin Olofua - Anuoluvapo Juvon Opeyori cütü üzərində 2:1 hesablı qələbə qazanmaqla kişilərin qoşa yarışında birinci olublar.

# «Qızıl top»un sahibi məlum olub



Dekabrın 4-də FIFA və «France Football» jurnalı 2018-ci ilin ən yaxşı futbolçusuna verilən «Qızıl top» mükafatının laureatının adını açıqlayıb.

Mükafata Xorvatiya millisinin və İspaniyanın «Real Madrid» klubunun futbolçusu Luka Modriç layiq görülüb. O, səsvermə nəticəsində «Atletiko Madrid» klubunun hücumçusu Antuan Qrizmanı, «Çelsi» komandasının əsas qol silahı sayılan Edən Hazardı və Kriştianu Ronaldunu («Real Madrid»- «Yuventus») qabaqlayıb.

Mərasimdə, həmçinin FIFA tərəfindən bu il ilk dəfə olaraq ən yaxşı gənc kişi (20 yaşa qədər) və qadın futbolçuya da mükafatlar təqdim edilib. Ən gənc kişi futbolçu nominasiyasında qalib Fransanın PSJ komandasının hücumçusu Kilyan Mbappe olub. Ən yaxşı qadın futbolçu adına isə Fransanın «Lion» klubunun hücumçusu Ada Heqerberq layiq görülüb.

# Futbol üzrə Avropa çempionatının seçmə mərhələsinin püşkü atılıb

## Azərbaycan millisi seçmə mərhələnin E qrupuna düşüb

Dekabrın 2-də İrlandiyanın paytaxtı Dublində 2020-ci ildə keçiriləcək futbol üzrə Avropa çempionatının seçmə mərhələsinin püşkü atılıb. Püşkün nəticələrinə əsasən, Azərbaycan milli komandası seçmə mərhələnin E qrupunda yer alıb. Qrupda millimizin rəqibləri Xorvatiya, Uels, Slovakiya və Macarıstan komandaları olacaq. UEFA-ya üzv olan 55 ölkənin yığma komandaları qitə futbol qurumunun reytinqindəki yerlərinə uyğun olaraq 7 səbətə bölünüblər. Avropa çempionatının seçmə mərhələsində ilk 5 qrupda altı, sonrakı 5 qrupda beş komanda mübarizə aparacaq. Hər qrupdan ilk iki yeri tutan yığmalar final mərhələsinə (pley-off) yüksələcək.

**Püşkatmanın nəticələri**

| | |
|---|---|
| **A qrupu:** | İngiltərə, Çexiya, Bolqarıstan, Monteneqro, Kosovo; |
| **B qrupu:** | Portuqaliya, Ukrayna, Serbiya, Litva, Lüksemburq; |
| **C qrupu:** | Niderland, Almaniya, Şimali İrlandiya, Estoniya, Belarus; |
| **D qrupu:** | İsveçrə, Danimarka, İrlandiya, Gürcüstan, Cəbəllütariq; |
| **E qrupu:** | Xorvatiya, Uels, Slovakiya, Macarıstan, Azərbaycan; |
| **F qrupu:** | İspaniya, İsveç, Norveç, Rumıniya, Farer adaları, Malta; |
| **G qrupu:** | Polşa, Avstriya, İsrail, Sloveniya, Makedoniya, Latviya; |
| **H qrupu:** | Fransa, İslandiya, Türkiyə, Albaniya, Moldova, Andorra; |
| **I qrupu:** | Belçika, Rusiya, Şotlandiya, Kipr, Qazaxıstan, San-Marino; |
| **J qrupu:** | İtaliya, Bosniyavə Herseqovina, Finlandiya, Yunanıstan, Ermənistan, Lixtenşteyn. |

Qeyd edək ki, Avropa çempionatının 2020-ci il iyunun 12-dən iyulun 12-dək keçiriləcək final mərhələsinə Azərbaycan, İngiltərə, Macarıstan, Almaniya, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Hollandiya, Rusiya, Rumıniya və Şotlandiya ev sahibliyi edəcək. Çempionatın bir qrupunun görüşləri, eləcə də dörddəbir final mərhələsinin bir oyunu Bakı Olimpiya Stadionunda keçiriləcək.

# Güləşçilərimiz Moskvada üçüncü olublar




Moskvada sərbəst və yunan-Roma güləşi üzrə ikiqat Olimpiya çempionu İvan Yarıginin xatirəsinə «Alrosa» kuboku yarışları keçirilib.

Sərbəst güləşçilərin turnirində məşqçi Nazim Əlicanovun rəhbərliyi altında İslam Bazarqanov (57 kq), Ənvərbəy Dalqatov (65 kq), Hacımurad Ömərov (74 kq), Kənan Əliyev (86 kq), Roman Bəkirov (97 kq) və Rahid Həmidlidən (125 kq) ibarət komandamız Gürcüstana qalib gəlib, Rusiya, İran və Özbəkistana uduzub. Bu nəticə ilə yığmamız 4-cü yeri tutub.

Yunan-Roma güləşi üzrə millimizin heyətində Ramiz Məmmədov (60 kq), Kərim Cəfərov (67 kq), İslambek Dadov (77 kq), Rafiq Hüseynov (87 kq), Zamir Məhəmmədov (97 kq) və Türmən Eyyubov (130 kq) yer alıb. Məşqçilər Turac Hüseynli və Zöhrab Abbasovun rəhbərliyi altında çıxış edən komandamız Rusiya və Özbəkistana məğlub olub, Gürcüstana isə qalib gəlib. Bu nəticə ilə millimiz «Alrosa» kuboku yarışlarını bürünc medalla başa vurub.

## mozaika

### sərgi

# «Qarabağ atları» Finlandiyada



Finlandiyanın Espoo şəhərində Avropa Azərbaycanlıları Konqresinə üzv olan Finlandiya-Azərbaycan Assosiasiyasının (FAA) təşkilati dəstəyi ilə «Qarabağ atları» rəsm sərgisi açılıb. Latviyalı rəssam xanım Datse Ştrausanın rəsmlərindən ibarət olan sərgi Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilib. Finlandiyada yaşayan rəssamın bu ekspozisiyası dünyanın bir çox ölkələrində nümayiş olunub. Onun əsas məqsədi Qarabağın və Qarabağ atlarının Azərbaycana aid olduğunu təbliğ etməkdir. Açılış mərasimində Finlandiya vətəndaşları, Azərbaycan diasporunun üzvləri və müxtəlif ölkələrin nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Datse Ştrausa Azərbaycana vurğunluğundan danışıb, bu sərgi vasitəsilə Avropaya Qarabağın Azərbaycanın ayrılmaz bir hissəsi olmasını göstərdiyini söyləyib. Avropa Azərbaycanlıları Konqresinin baş katibi, FAA-nın vitse-prezidenti Arzu Oqtay Datse Ştrausaya minnətdarlığını bildirib, qonaqlara Qarabağ həqiqətləri və Qarabağ atları haqqında ətraflı məlumat verib. Tədbirdə Azərbaycan musiqisi səsləndirilib, milli geyimlər nümayiş olunub.

### cəmiyyət

# Siqaret tüstüsü olmayan ölkə...

Bu, hələlik bir plandır. Onun yerinə yetirilməsinin mümkünlüyünü isə zaman göstərəcək.

Macarıstan hökuməti 2020-ci il yanvarın 1-dən sonra anadan olacaq ölkə vətəndaşları üçün tütün məmulatlarının alışı və istifadəsinə tam qadağa qoymaq niyyətindədir. Hökumətin bu planları barədə Baş nazirin siqaret çəkməyən şəxslərin hüquqlarının müdafiəsi üzrə komissarı Yanoş Lazar Şiofokedə tütün əleyhinə keçirilən konfransda məlumat verib. Onun sözlərinə görə, zərurət yarandığı halda, Macarıstan Konstitusiyasını da dəyişmək olar. «Tütündən istifadənin tamamilə qadağan edilməsində məqsəd Macarıstanı dünyanın siqaret tüstüsü olmayan ilk ölkəsinə çevirməkdir», - komissar əlavə edib.

Y.Lazar onu da bildirib ki, parlamentə nəqliyyat vasitələrində siqaret çəkməyin qadağan edilməsi və tütünlə bağlı məsələdə mənzil-kommunal birliklərinə daha çox səlahiyyətlər verilməsi barədə təkliflər də təqdim olunacaq.

### maraqlı

# «Ağıllı şəhər» salınır



Özbəkistanın Daşkənd vilayətində «ağıllı şəhər» yaradılması ilə bağlı ölkənin İnvestisiyalar üzrə Dövlət Komitəsi Sinqapurun «Universal Success Enterprises» şirkəti ilə memorandum imzalayıb. Tikintisinin 2021-ci ildə başa çatdırılması nəzərdə tutulan bu layihəyə Sinqapur 2,5 milyard ABŞ dolları sərmayə qoyacaq.

«Ağıllı şəhər» kommunikasiya və informasiya texnologiyaları sistemidir. Bu sistem vasitəsilə şəhər mühitinə səmərəli şəkildə nəzarət ediləcək. Sistem şəhərdə baş verən daxili prosesləri idarə etməyə imkan yaradacaq ki, bununla da əhalinin həyat şəraiti yüksələcək.

### tarix

# Hindistan «Atəşgah»la maraqlanır



Hindistanın «The Hindu» qəzetində Azərbaycandakı «Atəşgah məbədi» haqqında məqalə dərc edilib. Məqalədə «Atəşgah məbədi»nin tarixindən, buraya üz tutan səyyahlardan, eləcə də bu gün «Atəşgah məbədi»nin Dövlət Tarix-Memarlıq Qoruğu kimi fəaliyyətindən bəhs olunur. Bildirilir ki, «Atəşgah»ı Hindistanla Avropa arasında mədəniyyətlərarası mübadilə, qloballaşma tarixinin bir parçası hesab etmək olar.

Qəzet Azərbaycanın Avropa ilə Asiyanı birləşdirən qədim İpək Yolunun bir hissəsi olduğunu vurğulayır. Diqqətə çatdırılır ki, Bakının mərkəzinin 30 kilometrliyində, Suraxanı rayonu ərazisində yerləşən «Atəşgah məbədi», demək olar, bütün dünyada tanınır. Qədim dövrlərdə bu ərazidə atəşpərəstlərin məbədi yerləşib. Əbədi alova mistik əhəmiyyət verən atəşpərəstlər müqəddəs oda tapınmaq üçün buraya gəliblər.

Diqqətə çatdırılıb ki, XV-XVII əsrlərdə ticarət karvanları ilə Abşerona gələn atəşpərəst hindular Suraxanını ziyarət ediblər. Hindli tacirlər qədim məbədin yerində yeni tikililər inşa ediblər. «Atəşgah məbədi»nin ən erkən tikilisi 1713-cü ilə aiddir. XVIII əsrdə məbədin ətrafında ibadətgah, hücrələr, karvansara inşa olunub. Yazıda vurğulanır ki, xoşbəxtlikdən, 500 illik məbəd hələ də qalır və öz multikultural keçmişini qoruyub saxlayır.

«Güman ki, Xəzər dənizinin sahilində yerləşən, əhalisinin əksəriyyəti müsəlman olan postsovet ölkəsi Azərbaycanda «Müdriklik tanrısı Qaneşə həmd olsun» ifadəsini görəcəyiniz ağlınıza gəlməz. Amma «Atəşgah məbədi»nin girişindəki daş arkanın üzərində ilk gözə dəyən ifadə məhz budur», - deyə məqalədə qeyd edilir. Bu məbəddə devanaqari əlifbası ilə 5 cərgə yazı yazılıb. Bu ifadələrdən bəziləri hinduizmdəki alov tanrısına ithaf olunub. Beşguşəli məbəddəki otaqların giriş hissəsində isə sanskrit və ya pəncab dillərində yazılar var. Onları bu regiona təxminən 500 il əvvəl səfər etmiş hindistanlı səyyahlar yazıb.

Məqalədə diqqətə çatdırılır ki, hələ VII əsrdə Azərbaycana səfər etmiş səyyahlar yazılarında «Atəşgah»ın adını çəkiblər. Bildirilir ki, «Atəşgah» 1969-cu ildə bərpa edilib, 1975-ci ildə kompleks muzeyə çevrilib. Bu gün məbəddə yerləşən hər bir otaq burada yaşamış zəvvarların və asketlərin hekayəsindən xəbər verir. Məbəd dünyanın hər yerindən turistləri cəlb edir.

### maraqlı

# Suyun yeni təmizlənmə üsulu

Civə və digər ağır toksik metallarla çirklənmiş su ekoloji cəhətdən və insan sağlamlığına təsiri baxımından ciddi təhlükə mənbəyidir. İsveçin Çalmers Texniki Universitetinin tədqiqatçıları çirklənmiş suyun elektrokimyəvi proseslər vasitəsilə təmizlənməsinin yeni üsulunu kəşf ediblər.

Yeni üsul suda civənin miqdarını 99 faizədək azaltmağa imkan verir. Bu prosesdən sonra suyu içmək tamamilə təhlükəsiz olur.

Əsəb sistemi və beyinin inkişafına mənfi təsir göstən civə sağlamlıq üçün təhlükəli maddədir. Çox sürətlə yayılan bu maddə asanlıqla qida məhsullarına qarışa bilir. Alimlərin hazırladığı yeni üsul sayəsində ağır metalların ionları sudan çıxarılır: xüsusi metal plastin vasitəsilə elektrodlar onları özünə çəkir. Yeni üsul eklektik enerjisinə qənaət etmək baxımından da səmərəlidir.

Bu ixtiranın müəllifləri həm İsveçdə, həm də xarici ölkələrdə bir sıra nüfuzlu mükafatlara layiq görülüblər. Yeni üsul iqtisadi cəhətdən faydalı olduğu üçün sənayeçilərin də diqqətini cəlb edib.

**Müdriklər deyib ki...**



***«Xoşbəxt olmağın ən gözəl yolu başqalarını da xoşbəxt etməkdir».***

*Oldos Haksli (1894-1963)*